RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 59 (8652) ÇƏRŞƏNBƏ, 17 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEVİN ZƏFƏR YOLU

## Hadrut qəsəbəsində milli bayrağımızı ucaldan Müzəffər Ali Baş Komandan Azərbaycanda həyatın yeni mərhələsinin - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrünün başlandığını bəyan etdi

Azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.



Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.



Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq.



Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik.



Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər.



**Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!"**

# İLHAM ƏLİYEVİN ZƏFƏR YOLU







**Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.**

**AZƏRTAC xəbər verir ki, Prezident İlham ƏLİYEV dedi:**

- Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir - Zəfər yolu çəkilir. Eyni zamanda Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır.

Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. İndi isə həyatımızın yeni dövrü başlayır - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

*Ardı 3-cü səh.*

# İLHAM ƏLİYEVİN ZƏFƏR YOLU





*Əvvəli 2-ci səh.*

Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

❖ ❖ ❖

Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər.

**Prezident İlham ƏLİYEV:** Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə - Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!

Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası “Artsax dövləti” - cəhənnəmə getdi. “Dövlət” idisə, bəs niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır.

Bura işğaldan azad edilmiş Xocavənd rayonudur.

Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Bura da Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib. Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bura da işğaldan azad edilmiş keçmiş Hadrut rayonunun Düdükçü kəndidir. Görün, necə gözəl mənzərədir.

❖ ❖ ❖

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı və çıxış etdi.

# İLHAM ƏLİYEVİN ZƏFƏR YOLU

## Prezident İlham Əliyevin çıxışı







- Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir - oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bugünə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı.

*Ardı 5-ci səh.*







# İLHAM ƏLİYEVİN ZƏFƏR YOLU







*Əvvəli 4-cü səh.*

Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı - Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.





Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

*Ardı 6-cı səh.*

# İLHAM ƏLİYEVİN ZƏFƏR YOLU





*Əvvəli 5-ci səh.*

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcək.

❖ ❖ ❖

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında oldular.

**Dövlət başçısı** dedi: Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycan vəsaiti hesabına tikilmişdir və onu biz qaytarmışıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: "Kolxozların torpaqlardan əbədilik faydalanması üçün". Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar.

**Prezident İlham ƏLİYEV** dedi:

- Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin - alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.

Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? "Kamo", "Artur", nə bilim, "Marta". Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı - "İqor", "Aşa"? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.



❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində oldular.

**Prezident İlham ƏLİYEV:** Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Budur məktəbin binası?

**Prezident İlham ƏLİYEV:** Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir.



Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar.

Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

Dövlət başçısı və xanımı Tuğda Alban məbədində oldular.

**Prezident İlham ƏLİYEV:** Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.

Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.

**Dövlət başçısı:** Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir.

Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.



Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!"

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.

*Səfərdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək.*

## Milli Məclisin iclasında

# Nazirlər Kabineti ötənilki fəaliyyətinə dair hesabat verdi





Martın 16-da Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib.

İclası açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, bu gün Milli Məclisin yaz sessiyasının beşinci iclasıdır və Konstitusiyaya uyğun olaraq Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir.

Sədr diqqətə çatdırıb ki, 2020-ci il ölkəmizin dövlətçilik və müstəqillik tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın apardığı 44 günlük Vətən müharibəsi Zəfərlə başa çatıb, dövlətimizin ərazi bütövlüyü təmin olunub. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın işğaldan azad edilməsi ölkəmizin qarşısında tamamilə yeni perspektivlər açıb. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə möhtərəm Prezidentimiz deyib: “Şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. ...Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur”.

Sədr qeyd edib ki, 2020-ci ildə bütün dünya, o cümlədən Azərbaycan COVID-19 pandemiyası ilə mübarizə şəraitində yaşayıb. Buna baxmayaraq, ölkəmiz bu ağır vəziyyətdən nisbətən az itkilərlə çıxa bilib. Koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan şəxslərə və işsizlərə ünvanlanan irimiqyaslı sosial paket icra olunub. Sahibkarlara vergi güzəştləri tətbiq edilib. Belə bir çətin ildə qeyri-neft sənayesinin 11 faiz artması məhz dövlət tərəfindən həyata keçirilən düşünülmüş tədbirlərin nəticəsində mümkün olub.

Parlamentin sədri bildirib ki, müharibənin, koronavirusla mübarizənin böyük maliyyə vəsaitləri tələb etdiyi, həmçinin sərt karantin rejiminin və aşağı neft qiymətlərinin mövcudluğu şəraitində ölkəmizin valyuta ehtiyatları qorunub saxlanılıb və hətta artırılıb.

Ötən ilin ən böyük uğurlarından biri ölkəmizin təşəbbüsü və səyləri ilə reallaşdırılan “Cənub qaz dəhlizi”nin tam istismara verilməsi olub. Möhtərəm Prezidentimizin dediyi kimi, “Azərbaycan qazı tarixdə ilk dəfə olaraq artıq Avropa məkanındadır”.

Sədr qeyd edib ki, bu günlərdə daha bir sevindirici məlumat almışıq. Suveren fondların şəffaflıq və hesabatlılıq istiqamətində fəaliyyətini dəyərləndirən ABŞ-ın Beynəlxalq İqtisadiyyat üzrə nüfuzlu Peterson İnstitutunun tərtib etdiyi və ötən ay nəşr etdiyi 2019-cu il üzrə qiymətləndirmə cədvəlində Azərbaycan Respublikasının Dövlət Neft Fondu 64 suveren fond arasında 5-ci yerə yüksəlib. Əlamətdar haldır ki, aparıcı beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi islahatları yüksək qiymətləndirirlər. Görülən tədbirlərin nəticəsidir ki, Dünya Bankının “Doing Business” hesabatında ölkəmizin reytinqi daim yüksəlir. Artıq Azərbaycan bu reytinqdə 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Eyni zamanda ölkəmiz dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilib.

Sahibə Qafarova vurğulayıb ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır.

Ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər hökumət tərəfindən diqqətlə araşdırılıb. Bu təkliflərin icrası üçün görülmüş işlərə dair ətraflı məlumat təqdim edilib.

Eyni zamanda hesabata ilk dəfə olaraq 6-cı çağırış Milli Məclis deputatlarının sosial və infrastruktur obyektlərinin əsaslı təmirinə və tikintisinə, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına dair təkliflərinin icrası barədə məlumat da daxil edilib.

Milli Məclisin sədri çıxışının sonunda bugünkü müzakirələrin səmərəli olacağına əminliyini ifadə edib.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib.

### Baş nazir Əli Əsədovun çıxışı

Hörmətli sədr.

Hörmətli deputatlar.

Bu gün bu yüksək kürsüdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ildəki fəaliyyəti haqqında hesabatı ilə əlaqədar Milli Məclis qarşısında çıxış etməkdən məmnunluq duyuram.

2020-ci il Azərbaycan Respublikasının şanlı dövlətçilik və müstəqillik tarixində möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın Müzəffər Ordumuz tərəfindən azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə əlamətdar olmuşdur.

44 gün davam edən Vətən müharibəsində qazandığımız bu möhtəşəm Zəfər əsgər və zabitlərimizin sarsılmaz iradəsini, xalqımızın yenilməz ruhunu və qələbə əzmini, xalq-iqtidar birliyini bütün dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial şanlı Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirdi. Bir daha böyük Qələbə münasibətilə Ali Baş Komandanı, Silahlı Qüvvələrimizi, bütün xalqımızı, sizləri - hörmətli deputatları ürəkdən təbrik edirəm.

2020-ci il COVID-19 pandemiyasının yaratdığı fəsadlara baxmayaraq, bir sıra mühüm siyasi, iqtisadi və sosial hadisələrlə yadda qalmışdır.

VI çağırış Azərbaycan Respublikası Milli Məclisinə demokratik şəraitdə keçirilmiş seçkilər ötən ilin mühüm siyasi hadisələrindən biri olmuşdur. Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşmışdır. Hesabat ili ərzində hökumətlə Milli Məclis arasında işgüzar əməkdaşlıq münasibətləri daha da dərinləşmişdir. Nazirlər Kabineti istər büdcə müzakirələrində, istərsə də hökumətin illik fəaliyyətinin təqdimatı zamanı parlament üzvlərinin sorğu və təkliflərinə diqqətlə yanaşmışdır.

Hesabat ilində strateji layihələrin icrası, sosial-iqtisadi və digər islahatların həyata keçirilməsi sahəsində aparılan məqsədyönlü işlər davam etdirilmişdir. Ötən ilin son günlərində “Cənub qaz dəhlizi”nin son seqmenti olan TAP-ın istismara verilməsi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Avropaya ixracına başlandı. Bir çox ölkələri birləşdirən “Cənub qaz dəhlizi” cənab Prezidentin qeyd etdiyi kimi, Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur.

2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdədir.

Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra pozisiyalar üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir.

Ötən il həm də bütün dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizə və onun neqativ təsirlərinin aradan qaldırılması məqsədilə davamlı tədbirlər həyata keçirilmişdir. Bu xəstəliyə qarşı mübarizənin səmərəli və koordinasiyalı şəkildə aparılması üçün Prezidentin sərəncamı ilə Operativ Qərargah yaradılmışdır.

Dövlət başçısının tapşırığına əsasən, dövlətin bütün imkan və resursları xəstəliklə mübarizəyə yönəldilmiş, vətəndaşlarımızın sağlamlığının qorunmasına səfərbər edilmişdir. Ölkədə maska və dərman qıtlığı aradan qaldırılmış, laboratoriyaların sayı artırılmış, testlərin təchizatı təşkil olunmuş, qısa müddət ərzində modul tipli xəstəxanalar yaradılmış, mövcud xəstəxanaların bir çoxu koronavirusla mübarizəyə cəlb edilmişdir. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə il ərzində xarici ölkələrdən tibbi personal dəvət edilmişdir. Koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı ötən il səhiyyə xərclərinə 644 milyon manat vəsait ayrılmışdır.

Cənab Prezidentin fərmanı ilə yaradılmış xüsusi dəstək fonduna 114 milyon manatdan artıq vəsait yığılmışdır. Fondun vəsaitindən istifadə olunaraq koronavirusa qarşı peyvəndlər artıq alınmış, ölkəmizə gətirilmiş və yanvar ayının 18-dən vaksinasiya prosesinə başlanılmışdır. Bu günədək 459 min nəfərə yaxın əhali vaksinasiya olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Cənubi Qafqazda vaksinasiyaya başlamış birinci ölkə olmuşdur. Ümid edirik ki, vaksinasiya prosesinə start verilməsi xəstəliyin miqyasının azalmasında həlledici rol oynayacaq.

Pandemiyanın iqtisadiyyata mənfi təsirinin azaldılması məqsədilə cənab Prezidentin tapşırığına uyğun olaraq Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı hazırlanaraq təsdiq edilmişdir. Planın icrası istiqamətində hökumət tərəfindən qısa müddət ərzində büdcə vəsaitləri səfərbər edilərək maliyyə təminatı yaradılmışdır.

2020-ci ildə pandemiyanın təsirlərinin azaldılması üçün sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi üçün 461 milyon manat, sərnişindaşıma fəaliyyəti göstərən nəqliyyat sektorunun dəstəklənməsi üçün 277 milyon manat, güzəştli ipoteka kreditləri üzrə ayrılan vəsaitin artırılması üçün 90 milyon manat yönəldilmiş, 115 milyon manat həcmində vergi güzəştləri təqdim edilmişdir. COVID-19 pandemiyası dövründə dövlətin “Məşğulluq və sosial rifah”a dəstək tədbirləri ölkə əhalisinin 4 milyon 800 min nəfərini əhatə etmişdir. 600 min işsiz, o cümlədən xüsusi karantin rejimi dövründə gəlirini itirmiş şəxslərə yaşayış minimumu həcmində 190 manat birdəfəlik ödəmənin verilməsi təmin edilmiş və bu məqsəd üçün ümumilikdə 450 milyon manat vəsait xərclənmişdir. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqının ödənməsi məqsədilə dövlət büdcəsindən 27 milyon manata yaxın vəsait xərclənmişdir. Həmçinin özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilmiş və 2020-ci il ərzində 12 200 işsiz və işaxtaran aztəminatlı şəxsi əhatə etmişdir. Ümumilikdə məşğulluq və sosial rifaha dəstək bölməsi üzrə 610 milyon manat vəsait xərclənmişdir.

Bütövlükdə isə, pandemiyanın milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci ilin dövlət büdcəsi və digər mənbələr hesabına iqtisadiyyata toplam olaraq təxminən 2,5 milyard manat həcmində dəstək göstərilmişdir.

Beynəlxalq aləmdə məsuliyyətli və etibarlı tərəfdaş kimi tanınan Azərbaycan Respublikası pandemiya ilə beynəlxalq mübarizəyə dəstək olaraq 30-dan artıq ölkəyə yardım göstərmişdir.

Hörmətli deputatlar, pandemiya ilə əlaqədar olaraq dünyada ticarət dövriyyəsinin azalması, neft qiymətlərində kəskin volatillik, məcmu tələbin daralması və artan qeyri-müəyyənliklər qlobal iqtisadi aktivliyə mənfi təsir göstərmişdir. Təbii olaraq bütün dünyada 2020-ci il iqtisadi tənəzzül ili olmuş, Azərbaycanın da iqtisadiyyatına təsirsiz ötüşməmişdir.

2020-ci ildə ölkədə 72,4 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,3 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Ötən il sənaye istehsalı 5 faiz azalmışdır. Bu azalma “OPEC+” ölkələri tərəfindən neft hasilatı üzrə qəbul edilən məhdudiyyətlər səbəbindən baş vermişdir. Lakin sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 12,5 faiz artmışdır. Neft-qaz hasilatında 8 faiz azalma olsa da, qaz hasilatı 4,3 faiz və qaz ixracı isə 16 faiz artmışdır.

2020-ci ildə elektrik enerjisinin istehsalı 25,8 milyard kVt/st (istehlakı isə 22 milyard kVt/st) olmuşdur. Respublikanın enerji sistemində reabilitasiya proqramının həyata keçirilməsinə başlanılmışdır. Xarici tərəfdaşlar cəlb edilməklə bərpaolunan enerji növləri üzrə elektrik stansiyalarının tikintisinə dair müqavilələr həyata keçirilir.

2020-ci ildə pandemiyaya və xarici mühitin pisləşməsinə qarşı hökumətin gördüyü tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin edilmişdir. Belə ki, istehlak qiymətləri indeksi mövcud iqtisadi problemlər fonunda yüksək olmamışdır. Həyata keçirilən tədbirlər, o cümlədən monetar siyasət və manatın məzənnəsinin sabitliyi inflyasiyanı minimal 2,8 faiz səviyyədə saxlamağa imkan vermişdir.

Ötən il ödəmə qabiliyyətini itirmiş 4 bankın lisenziyası ləğv edilmişdir. Ümumilikdə 4 bank üzrə bu günədək 24,5 minə yaxın əmanətçiyə 628 milyon manat məbləğində qorunan əmanətləri üzrə kompensasiya ödənilmişdir. Beynəlxalq konyunkturun əlverişsiz olmasına baxmayaraq, ölkənin strateji valyuta ehtiyatları ötən il ərzində 51,2 milyard dollara çataraq ÜDM-nin həcmini üstələmişdir. 2020-ci il üzrə birbaşa xarici dövlət borcu ÜDM-in 19 faizini təşkil edir ki, bu da iqtisadi təhlükəsizlik meyarlarına tam cavab verir. Xarici ticarət dövriyyəsinin azalmasına baxmayaraq, ticarət saldosu müsbət 3 milyard dollar olmuşdur. 2020-ci ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 11,4 faiz artaraq 707 manat təşkil etmişdir.

Ötən il bütün sosial ödənişlər vaxtında və tam şəkildə həyata keçirilmişdir. Aparılan islahatlar nəticəsində Azərbaycanda orta pensiyanın məbləği təxminən 300 manata, yaşa görə pensiyanın orta məbləği isə 330 manata çatmışdır. Pensiyaların orta aylıq məbləği 13 faizdən çox artmışdır. Ünvanlı dövlət sosial yardım mexanizminin də əhatə dairəsi genişləndirilmişdir. 2020-ci ildə 77 min ailənin 322 min üzvünə 216 milyon manat ünvanlı yardım ödənilmişdir. Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 240 manat təşkil etmişdir. Şəhid ailələri, həmçinin müharibə əlilləri və onların ailə üzvləri cənab Prezidentin və Birinci vitse-prezidentin daim xüsusi diqqət və qayğısı ilə əhatə olunublar. Şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət başçısı tərəfindən Prezident təqaüdlərinin aylıq məbləğinin artırılması ilə bağlı müvafiq fərmanlar imzalanmışdır. 44 günlük Vətən müharibəsində şəhid olmuş 2881 nəfərin bu günədək 2695-nin ailələrinə, xəsarət almış və əlil olmuş hərbi qulluqçulara bütövlükdə 44 milyon manatdan çox sığorta ödənişləri verilmişdir. Bu istiqamətdə tapşırıqların icrası hökumətin gündəlik nəzarətindədir. Ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralıların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fondu yaradılmışdır.

Hörmətli deputatlar, 2020-ci ildə institusional sahədə həyata keçirilən islahatlar davam etmişdir. Cənab Prezidentin qətiyyəti və siyasi iradəsi ilə həyata keçirilən antikorrupsiya tədbirləri ardıcıl şəkildə aparılır və bütün dövlət qurumlarını əhatə etməkdədir. Hökumətə təqdim edilən təkliflərin hər birində antikorrupsiya mexanizmlərinin nəzərdə tutulması, sui-istifadə hallarına yol verilməməsi mərkəzi icra hakimiyyəti orqanları qarşısında müəyyən edilən əsas tələblərdən biridir.

Ölkəmizdə dövlət şirkətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların korporativ idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, maliyyə sağlamlığının və dayanıqlılığının təmin edilməsi məqsədilə Prezident tərəfindən “Azərbaycan İnvestisiya Holdinqi” publik hüquqi şəxs yaradılmışdır. Holdinqin Nizamnaməsi təsdiq edilmiş, Müşahidə Şurası və İdarə Heyəti formalaşdırılmışdır. 22 iri dövlət müəssisəsinin mərhələli şəkildə holdinqin idarəetməsinə verilməsi planlaşdırılır və bu günədək artıq 8 dövlət şirkəti holdinqin idarəetməsinə verilmişdir.

Milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək, postpandemiya dövründə ölkənin milli inkişaf prioritetlərini özündə əks etdirən müvafiq strategiyanın formalaşdırılması məqsədilə cənab Prezidentin fərmanı ilə Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılmış və onun tərkibi təsdiq edilmişdir.

İcbari tibbi sığorta sisteminin qurulması institusional islahatların mühüm istiqamətlərindən birini təşkil edir. Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq 2020-ci il 1 yanvar tarixindən etibarən icbari tibbi sığortanın ilkin mərhələdə Naxçıvan Muxtar Respublikasında və 23 inzibati ərazi vahidində tətbiqinə başlanılmışdır. Bu proses ölkənin digər 36 şəhər və rayonunu əhatə etməklə 2021-ci ildə də mərhələli olaraq davam etdiriləcək.

Aqrar sektor hesabat ilində də prioritet sahə olaraq diqqət mərkəzində saxlanılmışdır. Ötən il kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq 402,7 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2019-cu illə müqayisədə 63,3 milyon manat və ya 18,7 faiz çoxdur. 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilən yeni mexanizmə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiyanın verilməsinə başlanılmışdır.

Aqrar sığorta mexanizminin formalaşdırılması məqsədilə “Aqrar sığorta haqqında” Qanun və Qaydalar qəbul olunmuş və “Aqrar Sığorta Fondu” təsis edilmişdir.

Dövlət başçısının tapşırığına uyğun olaraq azad edilmiş torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması həm ölkəmizin ərzaq təhlükəsizliyinə, həm də bölgənin sosial-iqtisadi inkişafına təkan verəcəkdir. 2020-ci ildə kənd təsərrüfatının suvarma suyuna tələbatının ödənilməsi istiqamətində operativ və təxirəsalınmaz tədbirlər görülmüşdür. Belə ki, dövlət başçısının sərəncamı ilə su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq komissiya yaradılmış, 2020-2022-ci illəri əhatə edən Tədbirlər Planının icrasına başlanılmışdır. Operativ tədbirlərlə yanaşı, Nazirlər Kabinetinin sərəncamı ilə ölkə üzrə ilk dəfə su təsərrüfatı balansı təsdiq edilmişdir. Cari ildə əsas vəzifələrdən biri kimi işğaldan azad edilmiş torpaqlar da daxil olmaqla ölkədə su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetiriləcəkdir. Azad edilmiş torpaqlarda ən müasir suvarma sistemləri yaradılacaqdır. Azad edilmiş ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi, həmin ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanları da nəzərdən keçiriləcəkdir.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədəki nitqində cənab Prezident hökumətin qarşısında iqtisadi sahədə duran vəzifələri və prioritetləri dəqiq qeyd etmişdir. 2021-ci il və qarşıdakı dövr ərzində büdcə vəsaitlərindən səmərəli və qənaətli istifadə olunması, izafi xərclərin qarşısının alınması üçün maliyyə intizamı və nəzarət daha da gücləndiriləcəkdir. Dövlət satınalmalarının şəffaflığı və effektivliyinin təmin edilməsi istiqamətində işlər davam etdiriləcəkdir. Şişirdilmiş qiymətlərlə satınalmaların qarşısı qətiyyətlə alınacaqdır. Özəl sektorun investisiya layihələrinin maliyyələşməsinə cəlbi və dövlət-özəl tərəfdaşlığının təşviqi davam etdiriləcək, dövlət investisiya layihələrinin səmərəliliyi yüksəldiləcəkdir.

Nazirlər Kabineti özünün fəaliyyət proqramı kimi qəbul etdiyi cənab Prezidentin bütün vəzifə və tapşırıqlarının vaxtında və keyfiyyətlə icrasını təmin edəcəkdir.

Hörmətli deputatlar, Azərbaycan 2021-2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiya və dərin islahatlar Azərbaycanın iqtisadi qüdrətinin daha da artacağına, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin formalaşacağına zəmin yaradır. Hazırda postpandemiya dövrünə ciddi hazırlıq işləri görülməkdədir. Cənab Prezident tərəfindən “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” barədə sərəncam imzalanmış, hökumətə “2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası”nın hazırlanması ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Artıq hökumət tərəfindən bu istiqamətdə komissiya və alt işçi qrupları yaradılaraq müvafiq işlərə başlanılmışdır.

Təbii olaraq ötən illər ərzində milli iqtisadiyyatın inkişafı və dövlətin maliyyə imkanlarının genişlənməsi fonunda hərbi potensialımız və ölkəmizin müdafiə qabiliyyəti də güclənmişdir. Vaxtilə alınmış müasir silah, sursat və hərbi texnika Vətən müharibəsində uğurla sınaqdan çıxmış və özünü doğrultmuşdur. Ali Baş Komandan, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrimizin döyüş hazırlığı və maddi-texniki təchizatı hər zaman olduğu kimi, bundan sonra da ən vacib prioritet olaraq qalacaq. Təsadüfi deyildir ki, Azərbaycan Ordusunun müharibə dövründə nümayiş etdirdiyi döyüş taktikası və tətbiq edilən müasir hərbi texnologiyalar hərbi mərkəzlər və ekspertlər tərəfindən yüksək qiymətləndirilir.

Hörmətli deputatlar, təəssüf ki, qədim tarixə, unikal maddi və mədəni irsə, özünəməxsus flora və faunaya, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağ otuz ilə yaxın müddət ərzində düşmən tərəfindən amansız, vəhşicəsinə istismar edilmişdir. Lakin biz işğaldan azad edilmiş yerlərə həyatı qaytaracağıq, bütün viran qalmış yerləri bərpa edəcəyik. Dövlət başçısının müvafiq göstərişlərinə əsasən, işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı ilkin işlərə artıq başlanılmışdır. Bütün ərazilərin və şəhərlərin bərpası prosesinin vahid konsepsiya əsasında həyata keçirilməsi nəzərdə tutulur.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı vəzifələrin icrası üçün 2021-ci ilin dövlət büdcəsində ilkin olaraq 2,2 milyard manat maliyyə təminatı yaradılmışdır. Təbii ki, bu istiqamətdə atılacaq ən birinci və önəmli addım azad olunmuş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsidir. ANAMA-nın yenidən təşkili bu istiqamətdə işlərin keyfiyyətcə yeni səviyyədə aparılması baxımından böyük əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, mənfur düşmən müharibə zamanı münaqişə zonasından uzaqda yerləşən kənd və şəhərlərimizə də zərbələr endirmişdir. Ötən il noyabrın 6-da cənab Prezident 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdır.

Sərəncama uyğun olaraq və onun icrasını təmin etmək məqsədilə yaradılmış dövlət komissiyası tərəfindən zərər çəkmiş evlərin tikintisinin və bərpasının qısa müddət ərzində başa çatdırılması üçün tədbirlər görülməkdədir.

Ardı 8-ci səh.

## Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavininin və auditorlarının təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə, “Hesablama Palatası haqqında” Azərbaycan Respublikası Qanununun 11.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Nəsir İbrahim oğlu Sadıqov Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini təyin edilsin.

2. Cavid Fəzail oğlu Bayramov, Hilal Qorxmaz oğlu Hüseynov və Vəfa Allahverən qızı Mütəllimova Azərbaycan Respublikası Hesablama Palatasının auditorları təyin edilsinlər.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

*Bakı şəhəri, 16 mart 2021-ci il*

# Nazirlər Kabineti ötənilki fəaliyyətinə dair hesabat verdi

*Əvvəli 7-ci səh.*

Bütün iqtisadi və nəqliyyat əlaqələrinin, kommunikasiyaların bərpa edilməsi regionda davamlı sülhün və inkişafın təmin edilməsi üçün olduqca vacibdir. Bu məsələ Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr tarixli bəyanatında təsbit edilmişdir. Azərbaycanı öz ayrılmaz hissəsi olan və uzun illər blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyət kəsb edir. Bu məsələlərin koordinasiyalı və operativ həlli məqsədilə üç ölkənin Baş nazir müavinlərinin rəhbərliyi ilə yaradılmış işçi qruplar artıq əməli fəaliyyətə başlamışlar.

Eyni zamanda bildiyiniz kimi, Prezident İlham Əliyev Cənubi Qafqazda yeni formatda əməkdaşlıq platformasının yaradılması təşəbbüsünü irəli sürmüşdür. Əminik ki, bu platforma regional əməkdaşlığın inkişaf etdirilməsinə təkan verəcəkdir və bütün bölgə ölkələri üçün faydalı olacaqdır.

Hörmətli sədr, hörmətli deputatlar, bu gün bu yüksək kürsüdən çıxış edərək sizi və sizin simanızda, hörmətli millət vəkilləri, bütün Azərbaycan xalqını öz adımdan və hökumət adından bir daha əmin etmək istərdim ki, cənab Prezidentin həyata keçirdiyi düşünülmüş, qətiyyətli və uzaqgörən siyasi kursa uyğun olaraq qarşımızda duran şərəfli və məsuliyyətli vəzifələri vaxtında və uğurla yerinə yetirmək üçün hökumətin hər bir üzvü öz səy və gücünü bundan sonra da əsirgəməyəcək və yüksək əzmlə çalışacaqdır. Hər birinizə 2021-ci ildə qanunvericilik sahəsindəki ardıcıl və səmərəli fəaliyyətinizdə uğurlar arzu edirəm. Diqqətinizə görə sağ olun.

❖ ❖ ❖

Daha sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabat barədə fikirlərini bildirib.

Komitə sədri diqqətə çatdırıb ki, 2020-ci il üçün iqtisadiyyatımızın əvvəlcədən planlaşdırılmış inkişaf proqnozları yüksək olub. 1-ci rübün iqtisadi göstəriciləri bu proqnozların reallığa yaxın olduğunu göstərib. 2-cü rübün başlanğıcından etibarən isə COVID-19 pandemiyasının dünyada, o cümlədən Azərbaycanda geniş yayılması şəraitində dövlət başçısı İlham Əliyevin göstərişi ilə vətəndaşların sağlamlığı əsas meyar kimi seçilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi ilə həyata keçirilən tədbirlər epidemiyanın yayılma səviyyəsini kəskin azaltmaq və itkiləri minimuma endirməklə yanaşı, iqtisadiyyatımızın da gözlənilən itkilərinin azaldılması ilə nəticələnib.

İl ərzində dünya neft bazarında qiymətlərin kəskin ucuzlaşması iqtisadi böhranın əhatəliyini və kəskinliyini daha da artırıb. Böhran dünya əmtəə qiymətlərinin enerji sektorunda 18.3 faiz ucuzlaşması, qeyri-enerji sektorunda 16.1 faiz bahalaşması, dünya ərzaq qiymətlərinin 6.5 faiz yüksəlməsi, neftin qiymətinin isə 33 faiz düşməsi ilə müşayiət olunub.

Beləliklə, 2020-ci ildə Azərbaycan 3 cəbhədə - pandemiya ilə, qlobal böhran və işğalçı Ermənistan ilə mübarizə aparıb və bunun üçün kifayət qədər resurslarını səfərbər edib.

Koronavirus pandemiyası ilə mübarizə sahəsində təxirəsalınmaz tədbirlərin görülməsi üçün qısa bir müddətdə büdcə vəsaitləri səfərbər edilərək maliyyə təminatının yaradılması öz təsirini göstərib. Pandemiyanın yaratdığı problemlərə baxmayaraq, strateji layihələrin icrası, iqtisadi, sosial və institusional islahatların həyata keçirilməsi, ordu quruculuğu və hərbi potensialın gücləndirilməsi sahəsində görülən işlər müsbət qiymətləndirilməlidir.

Pandemiyaya qarşı iqtisadi tədbirlər paketi çərçivəsində fərdi sahibkarlara, muzdlu işçilərin əməkhaqlarına göstərilən maliyyə dəstəyi, pandemiyanın təsir etdiyi sahələrdə çalışan sahibkarlara əldə etdikləri mənfəətin 75 faizi miqdarında güzəştlərin tətbiq edilməsi və digər çoxsaylı güzəştlər iqtisadi mühitə müsbət təsir göstərib. 2020-ci ildə bankları, qeyri-bank kredit təşkilatlarını, kapital və pul bazarlarını, sığorta sistemini əhatə edən maliyyə sabitliyinin qorunması siyasətini uğurlu hesab edirik.

Komitə sədri diqqətə çatdırıb ki, hesabat ilində görülən tədbirlər iqtisadiyyatda şəffaflığı daha da artırıb, iqtisadi subyektlər və dövlət orqanları arasında etimad mühitini daha da gücləndirib.

Sonra hesabatla bağlı münasibətlərini bildirən Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Tahir Rzayev, Əhliman Əmiraslanov sənədi yüksək qiymətləndiriblər.

Müzakirələr zamanı çıxış edən Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, sədr müavini Fəzail İbrahimli, deputatlardan Sevinc Fətəliyeva, İlham Məmmədov, Azay Quliyev, Vahid Əhmədov hesabat barədə fikirlərini açıqlayıblar.

Fasilədən sonra Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr davam etdirilib.

Çıxış edən deputatlar Şahin İsmayılov, Məzahir Əfəndiyev, Rəşad Mahmudov, Fazil Mustafa, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Kamal Cəfərov, Qənirə Paşayeva, Azər Badamov, Elnur Allahverdiyev, Nigar Arpadarai, Eldəniz Səlimov, Tahir Kərimli, Musa Qasımlı, Razi Nurullayev, Əli Məsimli, Sədaqət Vəliyeva, Aqil Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, İsa Həbibbəyli, Rauf Əliyev, Hicran Hüseynova seçiciləri narahat edən məsələlər, işğaldan azad edilmiş torpaqlarımıza böyük qayıdışın təmin edilməsi, pandemiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, qarşıda dayanan vəzifələr barədə fikirlərini bildiriblər, 2020-ci ildə Nazirlər Kabinetinin fəaliyyətini yüksək qiymətləndiriblər.

Baş nazir Əli Əsədov deputatlar tərəfindən qaldırılan məsələlərə münasibət bildirdikdən sonra hesabat səsə qoyularaq nəzərə alınıb.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsi "Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavininin və auditorlarının təyin edilməsi haqqında" qərar layihəsidir.

Sədr diqqətə çatdırıb ki, Milli Məclisin Daxili Nizamnaməsinin 44-cü maddəsinin dördüncü hissəsinə və "Hesablama Palatası haqqında" qanunun 11.3-cü maddəsinə uyğun olaraq bu vəzifələrə təyinatlar Milli Məclisin sədrinin təqdimatına əsasən Milli Məclis tərəfindən həyata keçirilir. Milli Məclisin sədri Sahibə Qafarova Nəsir Sadıqovun Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini vəzifəsinə, Cavid Bayramovun, Hilal Hüseynovun və Vəfa Mütəllimovanın isə Hesablama Palatasının auditorları vəzifələrinə namizədliklərini irəli sürüb. Bildirib ki, irəli sürülən namizədliklərə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında da baxılıb və müsbət rəy verilib. Sədr bu namizədlərin təyin ediləcəkləri vəzifələri uğurla icra edəcəklərinə əminliyini ifadə edib.

Sonra qərar layihəsi səsə qoyularaq təsdiqlənib.

İclasın sonunda Milli Məclisin sədri Sahibə Qafarova qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini səsləndirib. Bildirib ki, Novruz dostluq, ünsiyyət, təmizlik və yenilik bayramıdır və əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərlərimizi təcəssüm etdirir. Milli Məclisin sədri bu münasibətlə möhtərəm Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya parlamentin adından təbrik məktubları ünvanlanmasını təklif edib. Deputatlar təklifi alqışlarla qarşılayıblar.

Bununla da Milli Məclisin iclası başa çatıb.

# Azərbaycan Ordusunun əməliyyat-taktiki təlimləri davam edir











Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin əməliyyat-taktiki təlimlərin gedişi barədə maket üzərində məruzələrini dinləyib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, eyni zamanda təlimlərin planına uyğun olaraq ərazinin kəşfi nəticəsində əldə olunan məlumatlar əsasında maket üzərində tapşırıqlar, qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkili dəqiqləşdirilib.

General-polkovnik Zakir Həsənov qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

* * *

Əməliyyat-taktiki təlimlərində qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslər tərəfindən təlimlərin gedişi barədə məruzələr edilib.

Məruzələr dinlənildikdən sonra qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verilib.

* * *

Əməliyyat-taktiki təlimlərin planına uyğun olaraq, qoşunlar cəmləşmə rayonlarını tutur və qruplaşmalar yaradılır.

Qoşunların komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunur.

* * *

Əməliyyat-taktiki təlimlər çərçivəsində pilotsuz uçuş aparatlarının (PUA) heyətləri havadan müxtəlif hündürlüklərdə kəşfiyyat apararaq əldə edilən məlumatları idarəetmə məntəqələrinə ötürürlər.

PUA heyətləri, həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkarlanması və müvafiq məlumatların idarəetmə məntəqələrinə göndərilməsi üzrə tapşırıqları icra edirlər.

# Ölkəmizdə mədəniyyət sənayelərinə fiziki məhdudiyyətli insanların cəlb olunması diqqət mərkəzindədir

Martın 15-də Milli Xalça Muzeyində Azərbaycan Mədəniyyət Nazirliyi və "British Council"ın (Britaniya Şurası) birgə təşkilatçılığı ilə "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda onlayn treninqin iştirakçılarına sertifikatların və "Şekspir xalçalarda" adlı müsabiqənin qaliblərinin eskizləri əsasında toxunan xalçaların təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova çıxışında müasir dövrdə hər bir muzey üçün ən önəmli məsələlərdən biri milli irs nümunələri kolleksiyaları haqqında məlumatların hamı üçün əlçatan olması, inklüziv mühitin yaradılması olduğunu bildirib: "Xalça Muzeyi inklüzivliyi diqqət mərkəzində saxlayır. Bakıda və regionlarda fəaliyyət göstərən muzey və qoruqların əməkdaşlarının iştirakı ilə keçirilən "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda onlayn treninq bu mənada əhəmiyyətli layihədir".

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov Azərbaycan və Böyük Britaniyanın uzun illərdir bir çox sahələrdə əməkdaşlıq etdiyini diqqətə çatdırdı. Böyük Britaniyanın xarici ölkələrlə elmi-mədəni əlaqələrini təşkil edən əsas təşkilat olan "British Council"ın Azərbaycanda da aktiv fəaliyyət göstərdiyini söyləyən nazir Mədəniyyət Nazirliyi və bu qurumun bir çox layihələrdə birgə əməkdaşlıq etdiyini, "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda treninqin də bu əməkdaşlığın daha bir göstəricisi olduğunu vurğulayıb.

Anar Kərimov bildirib ki, Azərbaycan müasir dövlət və rifahlı cəmiyyət quruculuğu yolunda mühüm tarixi nailiyyətlər əldə edib, sosial dövlət statusunu daim gücləndirib, hər bir vətəndaşının, o cümlədən əlilliyi olan vətəndaşlarının sosial rifah halının yaxşılaşdırılmasını təmin etmək məqsədilə davamlı iş aparılır: "Ölkəmizdə təhsil və mədəniyyət sahəsi inklüzivlik üzrə ilk sıralarda qərarlaşıb. Mədəniyyət sənayelərinə fiziki qüsurlu insanların cəlb olunması qarşıda duran prioritet məsələlərdəndir. Bu məsələlərdə biz gələcəkdə də "British Council"ın təcrübəsindən faydalanacağıq. Azərbaycan muzeylərində dünya praktikasına əsaslanaraq fiziki məhdudiyyətli insanların rahat və maneəsiz hərəkəti, eksponatlar haqqında məlumatları əldə edə bilmələri üçün bir çox inklüziv layihələr müvəffəqiyyətlə həyata keçirilib".

Layihəyə dəstək olan təşkilatlara minnətdarlığını bildirən nazir "British Council", Milli Xalça Muzeyi və Azərbaycan Rəssamlıq Akademiyasının birgə təşkilatçılığı ilə 2016-cı ildə Vilyam Şekspirin anadan olmasının 450 illiyinə həsr edilmiş "Şekspir xalçalarda" adlı müsabiqənin qaliblərinin eskizləri əsasında toxunan xalçaların Xalça Muzeyinə hədiyyə edilməsini iki ölkə arasında mədəni əməkdaşlığın daha da inkişafına töhfə verən hadisə kimi dəyərləndirib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp çıxışı zamanı deyib ki, mədəniyyətin qorunub saxlanılması və təbliğində əməkdaşlıq önəm kəsb edir. O, ötən ay Azərbaycanda səfərdə olan ölkəsinin Avropa qonşuluğu və Amerika bölgəsi üzrə dövlət naziri Vendi Mortonun İçərişəhəri və Heydər Əliyev Mərkəzini ziyarət etdiyini diqqətə çatdırıb. Bildirib ki, səfirlik mütəmadi olaraq "British Council" vasitəsilə Azərbaycandakı mədəni layihələrə dəstək olur.

"British Council"ın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Samr Şah çıxışında təşkilatın əsas missiyasının insanları bir araya gətirərək mədəniyyətləri yaxınlaşdırmaqdan ibarət olduğunu söyləyib. Deyib ki, əlliliyi olan şəxslərə diqqət göstərilməsi, mədəni irsin təbliği də bu fəaliyyətin əsas istiqamətlərindən biridir.

Çıxışlardan sonra "Muzeylərdə müyəssərlik və inklüzivlik" mövzusunda onlayn treninqin məhdud sayda iştirakçılarına sertifikatlar təqdim edilib.

Daha sonra "Şekspir xalçalarda" müsabiqəsi qaliblərinin eskizləri əsasında toxunan üç xalça Samr Şah tərəfindən Milli Xalça Muzeyinə təqdim olunub.

Tədbir iştirakçıları Mədəniyyət Nazirliyi tərəfindən 2020-ci ildə İtaliyanın Sartirano yarmarkasından alınaraq Milli Xalça Muzeyinə hədiyyə edilən və ekspozisiyada nümayiş olunan xalçalara baxış keçirdilər.

Sonda qonaqlar Xalq rəssamı Arif Hüseynovun "Novruz naxışları" adlı sərgisi ilə tanış olublar.

# "Cənub qaz dəhlizi"nin birləşdirici halqası

## TANAP-ın təməlinin qoyulduğu gündən 6 il keçir




Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Azərbaycandan İtaliya torpağınadək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ikinci və ən böyük hissəsidir. Onu bu möhtəşəm enerji dəhlizinin birləşdirici halqası, onurğa sütunu da adlandırırlar.

TANAP-ın təməli 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda qoyulmuşdur. Bu münasibətlə keçirilən mərasimdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın prezidentləri iştirak etmişlər.

Kəmərin təməlinin qoyulması uzunmüddətli danışıqlardan konkret işlərə keçmək demək idi. Axı TANAP-ın salnaməsi hələ bu hadisədən xeyli əvvəl başlanmışdı. 2012-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş Naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda TANAP üzrə hökumətlərarası saziş imzalamışdılar.

Həmin vaxtdan da layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə start verilmişdi. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün detalları nəzərdən keçirilmişdi. 2014-2015-ci illər TANAP üçün çox məsuliyyətli bir fəaliyyət dövrü olmuşdu.

TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. TANAP Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir.

TANAP ildə 16 milyard kubmetr Azərbaycan təbii qazını nəql edəcək. Bunun 6 milyard kubmetri Türkiyədəki, 10 milyard kubmetri isə Avropa ölkələrindəki istehlakçılara çatdırılacaq. Növbəti illərdə isə kəmərin nəqletmə qabiliyyətinin əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə qədər artırılacağı planlaşdırılır.

Enerjinin İpək yolu sayılan bu kəmər 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlanıb. Keçən ay "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının videoformat şəklində keçirilən VII toplantısında bu boru xəttinin fəaliyyətindən geniş söhbət açılmışdır. Prezident İlham Əliyev kəmər barədə demişdir: "2007-ci ildə biz Azərbaycandan Gürcüstana, oradan isə Türkiyəyə uzanan qaz boru kəmərinin inşasını başa çatdırdıq. Bunun özü də tarixdə bir ilk idi - Azərbaycan qonşu ölkələri təbii qaz ilə təmin etməyə başladı. Nəhayət, 2012-ci ildə, Avropa İttifaqı ilə bəyanatın imzalanmasından bir il sonra biz Azərbaycan və Türkiyə arasında TANAP layihəsinin inşası ilə bağlı müqavilə imzaladıq. Bu, "Cənub qaz dəhlizi"nin həyata keçirilməsi baxımından çox mühüm hadisə idi. 2018-ci ildə TANAP-ın icrası başa çatdıqdan sonra, 2020-ci ildə TAP layihəsi də yekunlaşdırılmışdır".

TANAP təkcə iki ölkə və region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir. Məlum olduğu kimi, "Cənub qaz dəhlizi" bir sıra ölkələrin, layihənin ayrı-ayrı seqmentlərində tərəfdaşlıq edən çoxsaylı şirkətlərin sıx əməkdaşlığı nəticəsində gerçəkləşib. Dəhlizlə nəql olunacaq təbii yanacağın Avropanın iri şirkətləri tərəfindən alınması nəzərdə tutulub.

TANAP-la Türkiyəyə kommersiya qazının nəqlinə başlanmasının birinci ili 2 milyard kubmetr qaz tədarük edilib. Ticari əməliyyatların ikinci ili keçən il iyunun 30-da bitib və həmin tarixə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetrə çatıb. Cari ildə kəmər Türkiyəyə 6 milyard kubmetr Azərbaycan təbii qazı ixrac edəcək. Sonrakı dövrdə bu boru kəməri ilə ildə 6 milyard kubmetr qaz nəql olunacaq.

2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan təbii qazını TAP-a ötürmək üçün hazır vəziyyətə gətirilib. 2019-cu il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Həmin tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu kəmərin əhəmiyyətini belə vurğulamışdır: "TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür. Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb".

Xatırladaq ki, TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi BOTAŞ-a, 12 faizi BP şirkətinə məxsusdur.

Azərbaycan qazı artıq Avropaya çatıb. TAP kəməri bu qitəyə daşıdığı mavi yanacağı məhz TANAP-dan qəbul edir. TANAP gələcəkdə təbii qazın təkcə "Şahdəniz"dən deyil, Azərbaycanın digər yataqlarından da Avropa bazarlarına nəql etmək potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Postmüharibə dövrü: çevik sosial dəstək tədbirləri geniş miqyas alır

**Tarixi Qələbə ilə başa vurduğumuz 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə icra olunan sosial dəstək proqramları barədə suallarımızı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev cavablandırır.**






Bununla ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq orqanlarını itirmiş vətəndaşlarımızın 2020-ci ilin dekabr ayından etibarən yüksək texnologiyalı, elektron protezlərlə təminatına başlanıb. Artıq 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Həmin protezlər "Genium" sistemi üzrə hazırlanır. Yüksək aktivlik və funksionallıq dərəcəsi olmaqla, elektron oynaq əsasında hərəkətin tam və daha dəqiq tənzimlənməsinə, köməkçi vasitələr olmadan ayağa qalxaraq sərbəst, sabit, təhlükəsiz və inamlı hərəkətə, qeyri-bərabər səthlərdə də addımlamağa, dəyişən məkanlarda və məqamlarda manevsiz dönməyə və s. imkan verir.

Qeyd olunan yüksək texnologiyalı protezlərlə yanaşı, müharibədən sonrakı dövrdə 210 qaziyə də 1220 reabilitasiya vasitəsi verilib. Bu günlərdə isə qazilərimizin müharibəki təkərli oturacaqla təminatına başlanıb.

*- Sosial ödənişlərdə artım dinamikası davam edirmi? Postmüharibə dövründə bu ödənişlərdə hansı artımlar var?*

- Cənab Prezidentin tapşırığı ilə ölkə əhalisinin rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar sosial təminat növləri üzrə ödənişlərin hər biri üzrə ciddi artım dinamikası ilə nəticələnir. Bu pozitiv tendensiyanı 2018-2020-ci illərin sosial mənzərəsində də aydın görmək olar. Xüsusilə 2019-cu ildə reallaşan isla-




hatlar nəticəsində minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manata çatdırılıb. Minimum əməkhaqqının və əməkhaqlarının artırılması sahəsində son 3 ildə atılan ciddi addımlar nəticəsində ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin Avropa Sosial Xartiyasından irəli gələn normalara uyğunlaşmasına doğru əhəmiyyətli irəliləyiş əldə olunub. Bu göstərici 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildə 33,3 faizə, 2020-ci ildə 38 faizə yüksəlib.

Artım dinamikası sosial təminat sisteminin mühüm komponenti olan pensiya təminatında da özünü göstərir. Belə ki, aparılan islahatlar nəticəsində son 3 ildə pensiyaların orta aylıq məbləği 60 faiz artıb. Bu ilin əvvəlinə nisbətən isə bu artım 10 faiz təşkil edib və pensiyaların orta aylıq məbləği 330,




(Əvvəli qəzetin 16 mart tarixli nömrəsində)

o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 361, əlilliyə görə pensiyaların orta aylıq məbləği 290, ailə başçısını itirməyə görə pensiyaların orta aylıq məbləği 267 manata çatıb.

Həmçinin son üç ildə müavinətlərin orta aylıq məbləği 95, maksimum məbləği 65 faiz artıb. Təqaüdün maksimum məbləğində 54 faiz artım baş verib və bu məbləğ 1300 manatdan 2000 manata yüksəlib. Ünvanlı dövlət sosial yardımının hər ailəyə düşən orta aylıq məbləği 63 faiz artaraq 243 manat olub. Həmin artım əsasında, eyni zamanda ehtiyac meyarı həddinin ildən-ilə artırılması dayanır. Ehtiyac meyarı həddi 2018-2020-ci illərdə 116 manatdan 170 manata çatdırılıb ki, bu da 46,6 faiz artım deməkdir. Yaşayış minimumunun məbləği də son üç ildə 26,4 faiz artaraq 155 manatdan 196 manata yüksəlib.

Bütün bu dinamika həmin ödənişlərə yönəldilən vəsaitlərin də artırılmasını şərtləndirib. 2018-2020-ci illərdə pensiya istiqaməti üzrə ayrılan illik vəsait 36 faiz və ya 1 milyard 188 milyon manat artaraq 4 milyard 477 milyon, müavinətlərə ayrılan illik vəsait 120 faiz artaraq 613 milyon, təqaüdlərə ayrılan illik vəsait isə 3,5 dəfə artaraq 326 mil-




yon manata çatıb. Ümumilikdə büdcədən müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə illik xərclər 97 faiz artaraq 588 milyon manatdan 1 milyard 156 milyon manata çatıb.

Bu ilin əvvəlindən pensiyalarda edilən artımlar, təqaüdlərin artımı və s. 2021-ci ildə də ödənişlərə yönəldilən vəsaitlərdə növbəti ciddi artımı şərtləndirir. Məsələn, 2021-ci ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması üçün illik əlavə olaraq 444 milyon manat ayrılıb. Bu ilin əvvəlindən təqaüdlərin və yeni təqaüdlərin təsis edilməsi üçün isə il ərzində əlavə 40 milyon manat sərf olunacaq. Yəni təkcə bu iki istiqamət üzrə artıq təqribən yarım milyard manatlıq əlavə maliyyə nəzərdə tutulur.

Hazırda dünya pensiya sistemində olduğu kimi, ölkəmizdə də pensiya sistemində sığorta prinsiplərinin gücləndirilməsi başlıca prioritetdir. Bununla yanaşı, Azərbaycanda sosial təminat prioritetdir sistemində humanist yanaşmalara əsaslanan islahatlar aparılıb. 2019-cu ilin əvvəlindən əmək pensiyası yaşına çatan və fərdi hesabında hətta ən kiçik məbləğdə pensiya kapitalı qeydə alınan şəxslərə əmək pensiyası hüququ verilib. 2020-ci ilin əvvəlindən yaşa görə müavinət yaşı pensiya yaşı ilə eyniləşdirilib, yəni pensiya yaşına çatsa da, pensiya hüququ yaranmayan bir çox yaşlı şəxslərin vaxtından daha erkən dövrdə yaşa görə müavinət sistemindən faydalanmasına imkan yaradılıb. Bunlardan əlavə, sağlamlıq imkanları məhdud uşaqlar arasında ailə başçısını itirmiş uşaqlara dövlətin daha bir humanist yanaşması diqqət çəkir. 2020-ci ilin əvvəlindən həmin uşaqlara ailə başçısını itirməyə görə müavinət və ya ailə başçısını itirməyə görə pensiyanı sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə ala bilmək hüququ verilib.

Bu kimi islahatlar, eyni zamanda yeni təqaüdlərin təsis olunması prosesi sosial təminat sisteminin əhatə dairəsinin genişlənməsinə səbəb olur. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Prezidentin aylıq təqaüdü ilə təmin olunanların sayı son iki ildə 5 dəfə artaraq 60 mindən 300 minə, il ərzində aylıq sosial müavinət alanların sayı isə 2017-ci ildəki 368,7 min nəfərdən 2020-ci ilin sonuna 401,3 minə çatıb.

Ümumilikdə, bu gün 2,4 milyonadək insan sosial təminat növləri üzrə ödənişlərlə təmin edilir.

Artım dinamikası fərdi uçot sistemi ilə əhatə olunanların sayının da çoxalması ilə müşahidə olunub. Fərdi şəxsi hesabı olanların sayı 2018-2020-ci illərdə 24 faiz artaraq 4 milyon 382 min 297 nəfər olub.

*- Cənab nazir, DOST mərkəzləri şəbəkəsinin, DOST xidmətlərinin əhatəsinin genişləndirilməsi, eyni zamanda sahədə elektron xidmətlərin sayının artırılması üçün hansı addımlar atılır?*

- Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə yaradılan və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin - əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, əlillik, reabilitasiya sahələri üzrə 132 növdə xidmətin "bir pəncərə"dən, modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

2019-cu ilin may ayından Bakıda 3 DOST mərkəzi istifadəyə verilib. Paytaxtın 8 rayonunun (Yasamal, Səbail, Qaradağ, Xəzər, Pirallahı, Nizami, Sabunçu, Suraxanı) sakini artıq DOST xidmətləri ilə əhatə olunub. Ümumilikdə, DOST xidmətləri ilə əhatə olunanların sayı bu ilin 1 mart tarixinə 303 mini ötüb. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi isə 97 faizdir. 142 - Çağrı mərkəzi tərəfindən isə 2020-ci ildə əvvəlki ilə nisbətən 3,3 dəfə çox olmaqla 673 374 vətəndaş müraciəti cavablandırılıb. Bu ilin yanvar və fevral ayları (81 051 müra-




ciət) da daxil olmaqla Çağrı mərkəzi vasitəsilə 956716 müraciətin cavablandırılması təmin olunub.

2021-ci ildə 4 DOST mərkəzinin (Bakının Binəqədi, həmçinin Abşeron, Bərdə və Quba rayonlarında) açılması planlaşdırılıb. Bununla ilin sonuna DOST mərkəzlərinin sayı 7-yə çatacaq. Növbəti illərdə bu mərkəzlərin şəbəkəsinin ölkəboyu genişləndirilməsi davam edəcək. Ümumilikdə, 2019-2025-ci illər üzrə Regional DOST proqramı çərçivəsində 17 DOST mərkəzi və 44 DOST məntəqəsinin açılması nəzərdə tutulur.

Prezidentin tapşırığı ilə nazirliyin elektronlaşdırma proqramı da mütəmadi genişlənir. Son iki ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən e-sosial.az portalı və fəaliyyət sahələrinə dair altsistemlər yaradılıb. Sosial təminat növləri üzrə ödənişlərin təyinatı, sosial sığorta sahəsində xidmətlər avtomatlaşdırılıb. Ölkədə ilk proaktiv xidmət kimi, 2019-cu ilin əvvəlindən pensiyaların avtomatlaşdırılmış qaydada proaktiv təyinatı sisteminə keçilib.

Ümumilikdə, son iki ildə 30-dək yeni e-xidmət, 30-a yaxın e-arayış xidməti istifadəyə verilib. Bu gün nazirliyin 34-ü proaktiv olan 61 e-xidməti, 30 e-arayış xidməti fəaliyyət göstərir. Təkcə 2020-ci ildə sosial təminat növləri üzrə 95 min təyinat, 190 minə yaxın fərdi hesabın açılması proaktiv qayda-




da həyata keçirilib. Nazirliyin e-xidmətlərinə ötən il 13 milyon 62 min 408 müraciət qeydə alınıb. E-arayış xidmətləri vasitəsilə isə 535 min 159 arayış verilib. "E-sosial" portalına müraciətlərin sayı 41,8 milyondan çox olub. Bu il isə hədəfimiz nazirliyin e-xidmətlərinin sayının 100-ə çatdırmaqdır. Bu isə xidmətlərimizin, artıq 80 faizinin elektronlaşması deməkdir olacaq.

Digər tərəfdən, əmək və məşğulluq sahəsində geniş elektronlaşdırma işləri aparılır. "Məşğulluq" altsistemi qurulub və bütün vakansiyalar orada toplanır, iş və işçi qüvvəsi üçün bütün müraciətlər bu sistemdə qarşılanır. İşəgötürənlərin kağız üzərində hesabat təqdim etmə prosesi tam ləğv edilərək elektron müstəviyə keçirilib. İşsiz və işaxtaran şəxslərin qeydiyyatı elektronlaşıb, fərdi məşğulluq proqramları artıq elektron qaydada tərtib olunur. Mühüm elektron platforma kimi "Əmək münasibətləri və məşğulluq" altsistemi - ƏMAS yaradılır. Ölkə üzrə bütün işəgötürənlər üçün ƏMAS bütün əmək münasibətlərini, məşğulluq, əmək və məşğulluğa nəzarət, hesabatlılıq və təhlil funksional istiqamətlərini özündə birləşdirəcək. Eləcə də ölkənin məşğulluq xəritəsi hazırlanır. Burada ölkənin iqtisadi zonaları, inzibati ərazi vahidləri üzrə əmək bazarına aid və bütün demoqrafik göstəriciləri, peşələrin atlası və bu qəbildən digər informasiyalar toplanacaq. "Məşğul şəxslərin reyestri", "BACAR" virtual informasiya resursu, "Elektron əmək birjası və yarmarkası" sistemi, "Monitorinq və Səyyar yoxlama", "İctimai işlər portalı" və s. də yaradılır.

*- Nazirlik ötən il pandemiyanın məhdudiyyətlərinə baxmayaraq, aktiv məşğulluq tədbirlərini, özünüməşğulluq proqramını daha da genişləndirdi. Cari il üçün bu sahədə, həmçinin qeyri-leqal məşğulluğun qarşısının alınması istiqamətində hansı hədəflər niz var?*

- Ötən il, ümumilikdə, 150 mindən çox şəxs aktiv məşğulluq tədbirlərinə cəlb edildi, o cümlədən 100 min işsiz və işaxtaran şəxs münasib işlərlə təmin olundu, 12,6 min nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində iqtisadiyyatın müxtəlif sahələri üzrə kiçik təsərrüfatlar, biznes sahələri yaradıldı. Peşə hazırlığı kurslarına 1014 nəfər, 37 660 şəxs isə peşəyönümü tədbirlərə cəlb olundular. Həmçinin 1300 nəfərə işsizlikdən sığorta ödənişi təyin edildi, pandemiya ilə əlaqədar dəstək istiqaməti kimi ödənişli ictimai işlərinin sayı 38 mindən 90 minə çatdırıldı.

2021-ci ildə aktiv məşğulluq proqramlarının daha da genişləndirilməsi bizim əsas hədəflərimizdən biridir. Eyni zamanda özünüməşğulluq proqramına bu il 16 min şəxsi cəlb etməyi nəzərdə tuturuq. Bu o deməkdir ki, özünüməşğulluq proqramının icrasına başlandığı 2017-ci illə muqayisədə bu proqram 2021-ci ildə 12,7 dəfə genişlənəcək. Cari ilin hədəflərindən biri də 3 min nəfər İSO (Keyfiyyət idarəetmə sistemləri üzrə) standartlarına uyğun mütəxəssis hazırlığını həyata keçirməkdir. Bu, işçi qüvvəsinin həmin standartlar əsasında rəqabət qabiliyyətinin artırılmasına mühüm dəstək olacaq.

Ötən dövrdə əməkhaqlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşmasına yönələn stimullaşdırıcı tədbirlər, özəl sektorda yeni vergi-sığorta güzəştlərinin tətbiqi əmək münasibətlərinin leqallaşmasına və əməkhaqqı donunun artmasına müsbət təsirini göstərib. 2020-ci ildə də əmək müqavilələrinin sayı 150 min (10 faiz), əməkhaqqı fondu 12 faiz artıb. Ümumən son 3 ildə əmək müqavilələrinin sa-




yında 30% və ya 400 minə yaxın, əməkhaqqı fondunda 81% artım özünü göstərib. Bu müsbət dinamikanın qorunub saxlanması da əsas hədəflərdəndir.

Əmək müfəttişliyi sahəsində əsas hədəf isə Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən standartlaşdırma üzrə beynəlxalq təşkilat olan İSO təşkilatının (Beynəlxalq Standartlaşdırma Təşkilatı) antikorrupsiya siyasəti və korrupsiyaya qarşı fəaliyyət sertifikatının (İSO 37001) alınmasıdır. Ötən ildən artıq bu istiqamətdə işlər başlanıb və cari ildə yekunlaşdırılması nəzərdə tutulur.

***Müsahibəni apardı:***
***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

Biz birlikdə güclüyük!

# Azərbaycan vaksinasiya üzrə MDB-də birincidir

Ötən ilin payızı dünyada COVID-19 pandemiyasının ikinci dalğasının başlaması və yoluxma sayının sürətli artımı ilə yadda qaldı. Lakin ilin sonlarına yaxın vaksinlərlə bağlı əldə olunan uğurlar insanlığın pandemiyanı məğlub edəcəyinə ümidləri artırdı. Bir sıra ölkələrdə peyvəndlər sınaqdan keçirildi.




Yeri gəlmişkən qeyd edək ki, tarixdə indiyə qədər məlum olan peyvəndlərin əksəriyyətinin hazırlanması xeyli zaman aldı. Bununla belə, COVID-19 pandemiyasının başlamasından bir il keçmədən yüzlərlə peyvənd namizədi ortaya çıxdı, sürətli işlər aparılaraq yeni texnologiyalarla istehsal edilmiş vaksinlər hazırlandı. 2020-ci ilin dekabrından etibarən isə dünyanın bir çox ölkəsində pandemiyaya qarşı vaksinasiyaya başlanıldı. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmiləri, eyni zamanda bu sahənin mütəxəssisləri dəfələrlə bəyan edirlər ki, yeni növ koronavirusa yoluxmamağın yolu vaksinasiyadır.

## Peyvəndlər qlobal ictimai sərvət hesab edilməlidir

Amma vaksinasiya başlananda daha bir qlobal problem yarandı. Məlum oldu ki, vaksinlər dünyanın kasıb ölkələri üçün əlçatan deyil. BMT baş katibi Antonio Quterreş də hazırda mövcud olan peyvəndlərin çox hissəsinin yalnız zəngin ölkələr tərəfindən istifadə edilməsinə görə narahatlığını bildirib və qeyd edib ki, vaksinlər qlobal ictimai sərvət hesab edilməlidir. Baş katib xatırladıb ki, BMT ÜST-ün və özünün digər müəssisələrinin timsalında tarixdə ən böyük qlobal immunlaşdırma kampaniyasının təşkilində ölkələri dəstəkləyir: "Dünyada heç bir ölkə bu böhrana təkbaşına qalib gələ bilməz" deyən BMT rəhbəri vaksin ehtiyatlarının və müvafiq texnologiyaların tədarükünü genişləndirmək və onların paylanmasını sürətləndirmək üçün hökumətləri və şirkətləri əlbir olmağa çağırıb.

Digər tərəfdən də demək olar ki, dünyanın əksər ölkələrində virusun mutasiyaya uğramış ştammına yoluxma sayı artıb, xüsusilə də Avropada vəziyyət olduqca təhlükəli hal alıb. Almaniyada üçüncü dalğanın yaxında baş verdiyi bildirilib, eynilə İtaliyada da vəziyyət yaxşı deyil. İtaliyanın baş naziri Mario Dragi yoluxma sayında öhdəsindən gəlinməsi çətin olan bir artımın başladığını və ölkədəki qırmızı bölgələrin sayının sürətlə artdığını söyləyib. Onun sözlərinə görə, ölkənin yarısı karantinə alınacaq.

## Mutasiyaya qarşı 3 əhəmiyyətli strategiya

Türkiyəli həkim Osman Müftüoğlu virusun təhlükəli mutasiyasına qarşı 3 əhəmiyyətli strategiyanın tətbiqinin vacibliyindən bəhs edərək vurğulayıb ki, ilk növbədə vaksinasiya sürətləndirilməlidir. Çünki peyvəndləmə müddəti uzandıqca yeni mutasiyaların yaranacağı şübhəsizdir. Bununla yanaşı, onun fikrincə, sosial məsafə daha da artmalıdır: "Madam ki, mutasiyaların çoxunu Britaniya ştammı təşkil edir və həmin mutasiyaya uğramış virusların təməl özəlliyini "daha asan yoluxma gücü" yaradır, ediləcək üç dəyişiklikdən birinin də sosial məsafəni 2 metrə çıxarmaq olduğundan kimsə şübhə etməsin".

Mütəxəssis eyni zamanda pandemiya ilə bağlı hazırkı vəziyyətdə maska taxmağın daha önəmli olduğunu deyir, mutasiyaya uğramış virusun sürətli yoluxma qabiliyyətinə malik olduğuna bir daha diqqət çəkir.

İndiyə qədər dünyada təxminən 354 milyondan çox insan müxtəlif vaksinlərlə peyvəndlənmişdir. Peyvəndləmə sayına görə ilk üçlüyü ABŞ, Çin, Avropa ölkələri bölüşdürür. Daha sonrakı yerlərdə isə Hindistan, Böyük Britaniya, Braziliya, Türkiyə, İsrail, Rusiya, Fransa, Çili, Birləşmiş Ərəb Əmirlikləri gəlir.

Azərbaycanda əhalinin 3,3 faizi vaksin olunub. Bu göstərici ilə Azərbaycan MDB ölkələri arasında birinci yerdə qərarlaşıb. Rusiya 3.2 faiz göstərici ilə ikinci yerdədir. Bu iki ölkə digərlərindən əhəmiyyətli dərəcədə irəlidədir. Üçüncü yeri isə 0,2 faiz göstəricisi ilə Belarus tutur.

Xatırladaq ki, ölkəmiz COVID-19-a qarşı vaksinlərin tədarükü və bölüşdürülməsi üzrə mərkəzləşdirilmiş COVAX layihəsinə qoşulan 192 dövlətdən biridir. Hazırda respublikamızda vaksinlənmə Çində istehsal olunmuş "CoronaVac" peyvəndi ilə aparılır. Yanvarın 18-dən tibb işçilərinin peyvəndlənməsi ilə start götürən proses Vaksinasiya Strategiyasına uyğun olaraq respublikamızın bütün bölgələrində uğurla davam etdirilir.

Azərbaycan İsveçin "AztraZeneca" şirkətinə məxsus 432000 doza "COVID-19" vaksin dərman vasitəsini alacaq. Rusiya istehsalı olan "Sputnik V" peyvəndi də Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən istifadə üçün təsdiq edilib. Bu peyvənd artıq 50-dən çox ölkədə qeydiyyata alınıb və koronavirus infeksiyasına qarşı müvəffəqiyyətlə istifadə olunmaqla yüksək effektivlik göstərir. Rusiya peyvəndinin yaxın zamanda ölkəyə gətirilməsi barədə danışıqlar davam etdirilir.

## Vaksinin faydaları risklərindən çoxdur

Hazırda dünyada müzakirə olunan əsas məsələlərdən biri COVID-19-a qarşı hazırlanan ilk iki peyvənddən biri olan "AstraZeneca"nın istifadəsinin bəzi ölkələrdə müvəqqəti dayandırılmasıdır. Həmin ölkələr bunu adıçəkilən peyvəndin qan laxtalanmasına səbəb ola biləcəyi və dərin vena trombozu və ağciyər emboliyası kimi xəstəliklərin riskini artıracağı şübhəsinə görə dayandırdıqlarını bildiriblər. 11 milyon doza ilə Avropada "AstraZeneca" peyvəndinin ən çox tətbiq olunduğu İngiltərənin Əczaçılıq və Sağlamlıq Məhsulları Agentliyi isə açıqlama verərək peyvəndin qan laxtalanmasına səbəb olmadığını bəyan edib.

Avropa Dərman Agentliyi (EMA) də qan laxtalanma hadisəsi hesabatlarının araşdırıldığını, ancaq peyvəndin faydalarının risklərdən çox olduğunu qeyd edib. EMA martın 10-dan etibarən Avropa İttifaqı ölkələrində ümumilikdə 5 milyon "AstraZeneca" vaksininin vurulduğunu, bunların arasında yalnız 30 laxtalanma hadisəsi olduğunu bildirib.

Oksford Universitetinin professoru Endryu Pollard isə mediaya açıqlamasında söyləyib ki, COVID böyük riskdir və peyvənd insanları xilas edir. İngiltərədəki məlumatlar isə qan laxtalanma hadisələrində artım olduğunu göstərmir: "Normalda İngiltərədə ayda 3000 qan laxtalanma hadisəsi var. Beləliklə, bu populyasiyanı peyvənd etdikdə, əlbəttə ki, bu laxtalanmalar baş verməyə davam edəcək. Bunların hər birinin peyvəndlə əlaqəli olub-olmadığını ayırmaq lazımdır". Mütəxəssis Finlandiyadakı araşdırmada vaksinlə bağlı laxtalanma riskinin artmadığı qənaətinə gəlindiyini söyləyib. Digər tərəfdən Pollard peyvənd edilməyəcəyi təqdirdə bu il koronavirusdan on minlərlə insanın daha çox ölmə təhlükəsi ilə üzləşə biləcəyi barədə də xəbərdarlıq edib.

Bütün araşdırmaların nəticələrinə, mütəxəssislərin məlumatlarına əsasən, dünyanın pandemiyadan qurtuluşu sürətli vaksinasiyaya bağlıdır. Və nə qədər ki, Yer üzündə COVID-ə qarşı kütləvi immunitet qazanılmayıb, bu virusla aparılan bütün mübarizələr gözlənilən effekti verməyəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qəbələdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri davam edir

Koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara uyğun olaraq, Qəbələ rayonunda xüsusi karantin rejimi qaydalarının təmin olunması üçün nəzarət tədbirləri davam etdirilir.





Rayon icra hakimiyyəti yanında yaradılan qərargahdan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, icra hakimiyyəti aparatının məsul nümayəndələrindən və polis əməkdaşlarından ibarət mobil qruplar xüsusi karantin rejimi ilə əlaqədar müəyyənləşdirilmiş qaydalara əməl olunmasını təmin etmək üçün ticarət, ictimai iaşə və digər obyektlərdə reydlər keçirir, əhalinin sıx toplaşdığı ərazilərdə maarifləndirici təbliğat işləri aparırlar.

Gündəlik keçirilən reydlər zamanı vətəndaşlara gigiyena qaydalarına riayət edilməsinin, sosial məsafənin qorunmasının vacibliyi, ictimai yerlərdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən, tibbi maskalardan istifadənin məcburiliyi izah olunur, tövsiyələr verilir. Eyni zamanda karantin qaydalarını pozan vətəndaşlar və obyekt sahibləri barəsində qanunvericilikdə nəzərdə tutulmuş qaydada inzibati tədbirlər görülür.

## Azərbaycanda koronavirus infeksiyasına 980 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 309 nəfər müalicə olunaraq sağalıb, 980 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 241 min 651 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 231 min 370 nəfər müalicə olunaraq sağalıb, 3298 nəfər vəfat edib. Aktiv xəstə sayı 6983 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 726 min 470 test aparılıb. Dünənki test sayı isə 10 min 453-dür.




◆ Yeni nəşrlər

# Şəhidlik zirvəsinə ucalanlar

### "Əbədi yaşayanlar - Şəki şəhidləri" kitabı ölməzlik qazanan igidlərimizin şərəfli ömür və döyüş yollarından geniş bəhs edir

Bu da 44 günlük Vətən müharibəsinin son akkordları... Qarabağımızın aranlı-dağlı ellərindən 30 ilə yaxındır ki, didərgin salınmış soydaşlarımızın gözlədiyi, həsrətini çəkdiyi tarix: 20 noyabr 2020-ci il. Ali Baş Komandanın hər an əmrinə hazır olan Müzəffər Azərbaycan Ordusu işğalda qalan əzəli-əbədi torpaqlarımızı azad edərək, düşmən üzərində çaldığı Qələbənin paytaxt Bakının Azadlıq meydanında Zəfər paradını keçirdi. Dünya bu Qələbəni alqışladı. Bu Qələbənin əldə edilməsi üçün canından-qanından keçən oğullarımızın müqəddəs ruhları da şad oldu.






Azərbaycan Prezidenti xalqımıza qələbə sevincini yaşadan, lakin Qələbə paradını görə bilməyib, qanı ilə "Qarabağ Azərbaycandır!" yazan şəhidlərimizi dövlətin ali mükafatları ilə təltif etdi. Xalqımızın qəlbində əbədiyyət qazanan şəhid qəhrəmanlarımızın qısa, lakin şərəfli ömürləri dastan və əfsanəyə çevrilməmiş qələmə alındı. Onların mübarək döyüş yollarında göstərdikləri şücaətlər, igidliklər gənclərə örnək oldu. Şanlı Qələbənin əldə edilməsində misilsiz xidmət göstərənlərin əbədiyyət laylası yalnız onların doğma ana-bacılarının deyil, əlində kamil qələmi, köksündə Vətən sevgisi olan yazarlarımızın da dilində bayatıya, ağıya çevrildi.

Belə dastanlaşmış ömür sahiblərinin bir qrupu da Azərbaycanın gözəlliklər diyarı olan Şəkidən yola düşmüşdü Vətən müharibəsinə. Hələ Birinci Qarabağ savaşında da şəkili gənclər könüllü olaraq döyüşlərdə iştirak edib və onlardan 214 nəfəri müqəddəs zirvəyə ucalmışdılar. Şəkidən 4 nəfər də Aprel şəhidi olub. Bu rayondan 74 nəfər isə Qarabağın erməni daşnaklarından müdafiəsində itkin düşüb...

Rəfiqə xanım Sadıqovanın bu günlərdə "Hədəf" nəşrində çapdan buraxılan "Əbədi yaşayanlar - Şəki şəhidləri" kitabında bir-birindən dəyərli faktlar, məzmunlu yazılar yetərincədir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq" fikri ilə açılan kitabın layihə rəhbəri Şəki Rayon İcra Hakimiyyətinin başçısı Elxan Usubov, ideya müəllifi SHXÇDX-nin Şəki rayon şöbəsinin rəisi, polkovnik Yalçın Sadıqlı, redaktoru isə tarix elmləri doktoru, professor Həsənbala Sadıqovdur.

Kitabı vərəqləmək kifayətdir ki, orada tarixləşən ömürlərin şərəfli yolçularını tanıyasan. Vətənin çağırışına könüllü qoşulan, bir-birindən igid, cəngavər oğulların qısa, lakin şərəfli döyüş yollarından söz açan oçerkləri oxuyarkən bir daha əmin olursan ki, cəmi 44 günlük Vətən müharibəsini xalqımız mütləq Qələbə ilə başa çatdırmalı idi. Məhz belə vətənpərvərlərimizin qəhrəmanlıqları Ermənistanı təslim aktına imza atmağa vadar etdi!

Kitabın redaktoru, tarix elmləri doktoru, professor Həsənbala Sadıqovun "Vətən müharibəsində qazanılan zəfər" məqaləsindən oxuyuruq: "Kütləvi qəhrəmanlıq cəbhədə və arxada özünü göstərir. Şəhidlərə münasibəti isə xüsusi qeyd etməliyik. Şəhidin sahibi vətəndir. Onların valideynləri "Vətən sağ olsun!" deyirlər..."

Müəllifin "Şəhid balam..." yazısının hər sətrindən Vətənə can qurban verən oğulların ürək sözləri eşidilir sanki: "...Şəhidlər haqqında yazmaq üçün onların valideynləri və doğmaları ilə görüşənədək çox götür-qoy etdim; verdiyim suallar görəsən onların dərdini təzələməz ki? Əslində, şəhidlər üçün keçmiş zaman yoxdur. Onlar hər zaman müasirlərimiz olaraq qalacaqlar: bu gün də, sabah da, yüz il keçsə də!

Bu görüşlərdə hiss etdim ki, şəhid anaları bir-birinə bənzəyir. Onları birləşdirən böyük kədərləri, övlad nisgili, bir də Vətən sevgisidir..."

SHXÇDX Şəki rayon şöbəsinin rəisi, polkovnik Yalçın Sadıqlı isə qələmə aldığı yazıda incə məqamlara toxunmaqla, şəhidliyin müqəddəsliyini önə çəkib: "...Vətən müharibəsi dövründə Şəki 56 şəhid verdi. Ürəyimiz 56 dəfə dolub-boşaldı: həm qürurlandıq, həm də itirdiyimiz igidlərə görə kədərləndik... Göybulaq kəndindən baş miçman Mərdan Mehdizadənin dəfni zamanı diqqətimi onun 10 yaşlı oğlu cəlb etdi. Ona atasının nəşi üzərində olan üçrəngli bayrağı təqdim edəndə "mən ağlamıram, igidi, şəhidi ağlamazlar, çünki onlar haqq yolunda qurban gediblər. Bu müqəddəs məkanda söz verirəm, hərbçi olacağam, Vətənə xidmət edəcəyəm" dedi..."

Yüksək poliqrafiya mədəniyyəti ilə çapdan buraxılan 360 səhifəlik, texniki tərtibat baxımından da diqqət çəkən, Müzəffər Milli Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin "Qarabağ Azərbaycandır!" fikri ilə açılan kitabda istər Vətən müharibəsi şəhidlərinin, istərsə də Qələbə sevinclərini bölüşmək üçün meydan və küçələrə axışan gənclərimizin coşqusu rəngli şəkillərlə öz əksini tapıb.

Kitabda həmçinin Birinci Qarabağ savaşında Vətənin çağırışına Şəki rayonundan səs verib ön cəbhəyə könüllü yollananların, Aprel şəhidlərinin, eləcə də itkin düşən 74 nəfərin siyahısı da oxucuların diqqətinə çatdırılır.

Bu da kitabın son üz qabığı: 64 igid şəhidimizin şəkilləri. Aralarında evli olanı də var, subayı, nişanlı olanı da. Yaşları müxtəlif, əqidə və amalları isə bir olub: "Vətən mənə oğul desə..."

Müəllifin kitabın sonunda verdiyi "Şəhidlərimiz haqqında elegiya" isə öz qəhrəmanlarına igidlərin ana-bacılarının, şəhid balalarının bədii sözün qüdrətinə sığınan vida nəğməsidir: "...Şəhid valideynləri, şəhid balaları, evinizdə müqəddəs bir əmanət var: şəhid oğlunuzun, şəhid atanızın tabutuna örtülmüş, ailənizə yadigar verilmiş üçrəngli dövlət bayrağı! Sizin üçün yeni bir müqəddəs ünvan var: övladınızın, atanızın uyuduğu qara mərmərli məzar!

Vətən sizinlə də qürur və fərəh duysun!

Başınız yalnız şəhid atanızın məzarı qarşısında əyilsin!

Siz qəhrəman övladısınız!

Siz Vətənə, Vətən sizə borcludur..."

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ermənistanda siyasi xaos silahlı qarşıdurmaya keçir

Müharibədəki məğlubiyyətdən sonra Ermənistanda siyasi böhran hər gün dərinləşir. Müxalifət baş nazir Nikol Paşinyanın istefa verməli olduğunu iddia edərək artıq 4 aydır mitinqlər keçirir. Lakin rəy sorğuları göstərir ki, insanlar müxalifətə etimad göstərmir və Paşinyan əvvəlki kimi olmasa da, populyarlığını saxlayır.

## Müxalifət Paşinyanın seçkilərdə iştirakını istəmir

Nikol Paşinyan siyasi böhrandan çıxış yolu kimi növbədənkənar seçkilərin keçirilməsini təklif etsə də, müxalifət razı olmur. Daha dəqiq desək, müxalifət seçkilərin Paşinyanın iştirakı olmadan keçirilməsini məqsədəuyğun sayır. Bununla belə baş nazirin özünün də iştirakı ilə seçkinin keçirilməsində israrlı olduğu görünür.

Hadisələrin bu səpkidə cərəyan etdiyi bir vaxtda Ermənistan hakimiyyəti erkən seçkilərin keçirilməsi istiqamətində hərəkətə keçib. Ermənistanın "Past" qəzeti yazır ki, bu günlərdə Nikol Paşinyan və "Vətəndaş razılaşması" partiyasının nümayəndələri həm partiyanın üzvləri, həm də region qubernatorları və böyük şəhərlərin rəhbərləri ilə görüşlər keçiriblər. Onlar hakimiyyətin, əsasən də Paşinyanın reytinqinin yerlərdə hansı həddə olduğunu öyrənmək istəyirlər.

Nəşr öz mənbələrinə istinad edərək Paşinyanın martın 23-nə qədər istefa vermək qərarına gəldiyini, bəzi mənbələrə görə, fövqəladə hal olmazsa, daha tez istefa verə biləcəyini yazıb. Əgər belə olarsa, Ermənistanda may ayında erkən seçkilərin keçirilməsi gözlənilir.

Ermənistan parlamentinin üzvü Artak Zakaryan isə bu ilin may-iyun aylarında seçkilər keçirməyi planlaşdıran Paşinyanın yenidən həmin vəzifəyə seçiləcəyi təqdirdə vətəndaş müharibəsinin başlayacağını bildirib. O, "Facebook" səhifəsində yazıb ki, Paşinyan yenidən baş nazir seçilməməlidir və cinayətkarlarla yenidən seçkilərə getmək böhrandan çıxış yolu deyil: "Əgər bu, baş verərsə, vətəndaş müharibəsi qaçılmazdır. Sözlərimi yadda saxlayın, əgər yanılsam hamıdan üzr istəyəcəyəm. Seçki öncəsi və sonrası proseslər dava, şiddət, bıçaqlanma, işgəncə və saxtakarlıqlarla müşayiət olunacaq".

## Terrorçu partiyanın üzvləri etiraz edirlər

Ermənistanın müstəqilliyinin formal olduğu məlumdur. Bunu bütün dünya bilir. Ölkədə indiyə qədər hakimiyyətdə olmuş bütün siyasi qüvvələr öz fəaliyyətlərini xarici diktələrlə razılaşdırıblar. Bu günlərdə Yerevan küçələrində mitinq keçirən "Sasna tsrer" terror partiyasının üzvləri Ermənistanın forpost olmasına etirazlarını bildiriblər.

Amerikalı jurnalist Patrik Lankaster özünün "YouTube" kanalında erməni nasistlərinin və "Sasna tsrer" terrorçu qruplaşmasının üzvlərinin Yerevan küçələrindəki növbəti yürüşü barədə reportaj hazırlayıb. Jurnalist yürüş iştirakçıları ilə söhbətləşib. Onlardan biri deyib ki, erməni millətçiləri olaraq Qərb tərəfdarıdırlar. Digər yürüş iştirakçısı isə Paşinyanı satqın adlandırıb və baş nazir vəzifəsində "Sasna tsrer" lideri Jirayr Səfilyanı gördüklərini deyib.

Başqa bir yürüş iştirakçısı isə "biz həbsxanada yox, azadlıqda yaşamaq istəyirik" deyib. "Bizə belə kömək lazım deyil, bu işğaldır. Biz Avropanı istəyirik, Qərbi istəyirik, sivilizasiyanı istəyirik", - deyə həmin yürüş iştirakçısı vurğulayıb.

Xatırladaq ki, 2016-cı il iyulun 17-də Yerevanda post-patrul xidmətinin binasına silahlı hücum edərək insanları girov götürmüş "Sasna Tsrer" qruplaşması Serj Sarkisyanı hakimiyyətdən getməyə məcbur etmək üçün silahlı qiyam qaldırmışdı. Ermənistanda 2018-ci ildə hakimiyyət dəyişikliyindən sonra isə "Sasna Tsrer" terror təşkilatının "xaç atası", o cümlədən qruplaşmanın mənəvi lideri Jirayr Səfilyan həbsdən azad edilmişdi. Səfilyanla yanaşı, təşkilatın digər üzvləri də azadlığa buraxılmışdılar.

"Sasna tsrer" üzvləri üsyan qaldırıb Ermənistanı azad görmək istəsələr də, özləri də terrorçu kimi işğal siyasətinə dəstək verirlər. Lakin bu ölkə nə qədər ki qonşularına qarşı ərazi iddialarından əl çəkməyəcək, onda müstəqil də ola bilməyəcək, başqa dövlətlərin yedəyində sürünəcək.

Bu arada Ermənistanda iqtisadi problemlər daha da dərinləşməkdə davam edir. "Lragir" qəzeti yazır ki, ölkəni iqtisadi sahədə çətin günlər gözləyir: "Mərkəzi Bankın Ermənistanda makroiqtisadi vəziyyətin sabit olduğuna dair əhalini arxayın etməsinə baxmayaraq, biz yenidən milli valyutamız dramın növbəti devalvasiyasının şahidi olacağıq. Mənbəmiz bildirdi ki, Mərkəzi Bank hətta tələb olduğu halda belə banklara dollar almağı qadağan edərək repressiv tədbirlər vasitəsilə dramın kursunu saxlamağa çalışır. Əgər əvvəllər Mərkəzi Bank valyuta müdaxilələri yolu ilə dramın kursuna təsir edirdisə, indi xarici rezervlərin pis vəziyyətdə olması üzündən bu maliyyə instrumentinin tətbiqi imkanları da xeyli məhdudlaşıb".

Erməni diasporu ilə Ermənistan hakimiyyəti arasında fikir ayrılıqları, qarşılıqlı narazılıqlar da artır. Diaspor yalnız hakim dairələrin, bir qrup məmurun faydalandığını əsas gətirərək yardımını azaldıb. Bu yardımların azalması, bəzən isə dayanması ölkədə iqtisadi vəziyyəti pisləşdirir. Məlumatlara görə, Qərb KİV-ində Paşinyan əleyhinə yer alan məqalələrin sifarişçisi də erməni diasporudur. Diasporun dəstəyinin itirilməsi isə Paşinyanın hakimiyyətdəki mövqeyini sürətlə laxladır. Bu da Paşinyan iqtidarı üçün əsas zərbələrdən biri hesab olunur. Məhz bu səbəbdən müxalifət Paşinyan rejimini yıxmaq üçün əlavə imkanlar qazanır.

Bütün bunların fonunda hakimiyyətdaxili ziddiyyətlərin genişlənməsi Ermənistanda siyasi böhranı daha da dərinləşdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# “YAŞAT” Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir

“YAŞAT” Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir.





Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, daha bir şəhidimizin yeni doğulan övladının - şəhidimiz Həsən Həsənovun övladı Həsən Camalın zəruri xərcləri fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidimizə rəhmət etsin!

Xatırladaq ki, “YAŞAT” Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 Çağrı Mərkəzi fəaliyyət göstərir.

# FHN-in Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinə media-tur təşkil olunub

Martın 16-da Fövqəladə Hallar Nazirliyinin (FHN) Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinə media-tur təşkil olunub.

AZƏRTAC xəbər verir ki, media-turda dövlət agentliyinin rəisi Vüqar Hüseynov qurumun yaranma tarixi, inkişaf yolu və fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, respublikamızda nüvə və radioloji təhlükəsizlik sahəsində yaranan münasibətləri nizamlanması, ölkəmizin üzərinə düşən beynəlxalq öhdəliklərin lazımınca yerinə yetirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 24 aprel tarixli fərmanı ilə FHN-in Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi təsis edilib.

Diqqətə çatdırılıb ki, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi əhalinin və ərazilərin nüvə və radiasiya təhlükəsizliyinin təmin olunmasında, nüvə və radioloji fəaliyyətin tənzimlənməsi sahəsində dövlət siyasətinin hazırlanmasında iştirak edən, bu siyasətin həyata keçirilməsini təmin edən və həmin sahədə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

Agentliyin rəhbəri bildirib ki, bu qurum beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının üzv olduğu Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA), onun Beynəlxalq Hadisə və Qəza Mərkəzi, ABŞ Enerji Departamenti və digər aidiyyəti təşkilatlarla sıx əməkdaşlıq edir.

Qeyd olunub ki, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyində 8 şöbə, bu şöbələrin nəzdində 9 sektor fəaliyyət göstərir.

# Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) əhaliyə müraciət edib. FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə hazırda bütün dünyada davam edən pandemiya fonunda ölkəmizdə də COVID-19 virusunun yayılmasının insanların həyat və sağlamlığı naminə Novruz bayramının bu il ənənəvi şəkildə qeyd edilməsini arzuolunmaz etdiyi vurğulanıb.

Bununla əlaqədar nazirlik əhaliyə müraciət edərək, COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması üçün ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə əməl etməyə, qarşıdan gələn qeyri-iş günlərini yalnız ailə üzvləri ilə keçirməyə, kütləvi məclislərdən və bir yerə toplanmaqdan çəkinməyə, şəxsi gigiyena qaydalarına riayət etməyə və qoruyucu maskadan istifadə etməyə çağırır.

“Həmçinin mümkün arzuolunmaz hadisələrin qarşısını almaq üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyin vacibliyini bir daha xatırladırıq.

Unutmayın, qaydalara biganəlik həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin”, - deyə müraciətdə bildirilib.

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ərzaq məhsulları (“Şirniyyat halvalarının istehsalı”, “Göbələk istehsalı”, “Pomidor emalı müəssisələrinin yaradılması”, “Mini konserv istehsalı” və “Nehrə yağının istehsalı və qablaşdırılması”) üzrə daxili bazar araşdırmalarının aparılmasına dair məsləhət xidmətlərinin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün bu sahədə ixtisaslaşmış potensial malgöndərənlər (podratçılar) dəvət olunur. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Sorğuda iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini tender komissiyasına təqdim edə bilərlər.

İştirak haqqı: 300,00 (üç yüz) AZN

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**

**Bank rekvizitləri: “Kapital Bank” ASC-nin Mərkəzi filialı**
**VÖEN: 1603326271**
**H/h: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**

Təkliflər sorğusu prosedurunda iştirak etmək üçün ödənilən iştirak haqqı heç bir halda geri qaytarılmır.

Sorğuda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *sorğuda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri və tender təklifi ilə bank təminatı sənədlərini 01 aprel 2021-ci il saat 11:00-dək təqdim etməlidirlər. İddiaçıların təklifləri 02 aprel 2021-ci il saat 11:00-da Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (Ünvan: AZ1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134) açılacaqdır.

Tel: (012) 404 04 01, faks: (012) 404 04 03

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi *açıq tender elan edir*

Dəftərxana ləvazimatlarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Müsabiqəyə daxil olduqdan sonra “Asan Ödəniş”lə “ödə ” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar (əlaqələndirici şəxs - Əvəz Məmmədzadə, tel: 012 590-81-60).

İştirak haqqı: 300 (üç yüz) AZN

Təşkilat - Baş Dövlət Yol Polisi İdarəsi
VÖEN: 9900063851
H/h: AZ45CTRE00000000000002078506
Dövlət Xəzinədarlığı Agentliyi
VÖEN: 1401555071
Kod: 210005
M/h: AZ41NABZ01360100000000003944
SWIFT BIK: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 15.04.2021-ci il saat 10:00-dək, tender təklifi ilə bank zəmanəti sənədlərini isə 25.04.2021-ci il saat 10:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 26.04.2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

# “Azərişıq” ASC Ağdamın 8 kəndində yenidənqurma işlərinə start verib

“Azərişıq” ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, “Azərişıq” Qarabağda” layihəsi çərçivəsində Ağdam rayonunun Əfətli kənd ərazi nümayəndəliyinə daxil olan 8 kənddə yenidənqurma işlərinə start verilib.

Müharibənin gedişində bu kəndlər erməni atəşinə məruz qalan zaman elektrik enerji təsərrüfatına ciddi ziyan dəymişdi. Ermənilərin atdığı çoxsaylı mərmilər bir çox yerdə xətt və dayaqları yararsız hala salmışdı.

İlkin mərhələdə 3 kənddə elektrik xətləri, dayaqlar, transformator məntəqələri və sayğaclar tamamilə yenilənəcəkdir. Əraziyə kifayət qədər mal-material göndərilib.

1200-dək abonentin yaşadığı Hacıməmmədli, Məmmədbağırlı və Əfətli kəndlərində işlərin yekunlaşması bir aya nəzərdə tutulub. Kəndlər yeni tikilmiş 35/10 kilovatlıq Əfətli yarımstansiyasından qidalanırlar.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin fərmanına uyğun olaraq işğaldan azad olunan Cəbrayıl, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Ağdam rayonlarının ərazilərində yerləşən xüsusi dövlət əhəmiyyətli binalar elektrik enerjisi ilə təmin edilib. Suqovuşan qəsəbəsinə isə Tərtərdən yeni 35 kilovatlıq xəttin çəkilişi işləri davam edir.

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tender komissiyasının 01 mart 2021-ci il tarixdə “Akademiyanın əsas binasının II mərtəbəsindən metal yanğın pilləkəninin layihələndirilməsi işinin satın alınması” üzrə keçirdiyi kotirovka sorğusu prosedurunda “AZTEXCASPİAN” Məhdud Məsuliyyətli Cəmiyyət qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 11 mart 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tender komissiyasının 01 mart 2021-ci il tarixdə “Kitabxana sisteminin idarə edilməsi və əlaqəli təlimlərin keçirilməsi işinin satın alınması” üzrə keçirdiyi kotirovka sorğusu prosedurunda “MUROMA” Məhdud Məsuliyyətli Cəmiyyət qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 11 mart 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 05 fevral 2021-ci il tarixdə “Müxtəlif təmir və sərf materiallarının” satın alınması üzrə kotirovka sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən “DISKED QRUP” MMC şirkəti qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 48 236,63 AZN (qırx səkkiz min iki yüz otuz altı manat 63 qəpik) məbləğində müvafiq xidmət müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 12 fevral 2021-ci il tarixdə “Külək enerji qurğularının, turbinlərin, sınaq və güc ötürücü sistemlərinin sərf mal-materiallarının” satın alınması üzrə kotirovka sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən “DISKED QRUP” MMC şirkəti qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 48 968,70 (qırx səkkiz min doqquz yüz altmış səkkiz manat 70 qəpik) məbləğində müvafiq xidmət müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin Bozdağ Qış Otlaqlarının Su Təminatının Sistemlərinin İstismarı İdarəsi tərəfindən “Azərbaycan” qəzetinin 09.02.2021-ci il tarixli nömrəsində və e-tender.gov.az saytında 09.02.2021-ci il tarixdə elan edilmiş “Yüksək təzyiqli boru kəmərlərinin cari təmiri üçün polietilen boruların, tikinti materiallarının və avtomobil-traktor ehtiyat hissələrinin satın alınması” üzrə müsabiqədə Tender komissiyasının 12.03.2021-ci il tarixli qərarına əsasən “Arza İnşaat-A” MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Baş Prokurorluğu isitmə-soyutma sistemlərinə xidmət, texniki dəstək xidmətlərinin, avtomobil təmiri xidmətlərinin, tərcümə xidmətlərinin, çap işləri və poliqrafiya xidmətlərinin satın alınması üzrə təkliflər sorğusu proseduru kecirir

Prosedur 19 mart 2021-ci il saat 17:00-a kimi 3 gün müddətində keçiriləcəkdir. Əlaqələndirici şəxs: Pərviz Adgözəlov, telefon - 492-64-80

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Beynəlxalq standartlara uyğun rəsmi internet səhifəsinin “sosial.gov.az” yeni dizaynda yaradılması işlərinin satın alınması ilə əlaqədar elan edilmiş açıq tenderin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tender təkliflərinin verilməsinin son müddəti 06 aprel 2021-ci il saat 15:00-a və tender təklifi zərflərinin açılışı vaxtı 07 aprel 2021-ci il saat 15:00-a müəyyən edilmişdir.

***Tender komissiyası***

# Baş Prokurorluq ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun həbs edilməsini təsdiqləyib

Baş Prokurorluq ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun həbs edilməsi ilə bağlı xəbərə münasibət bildirib.

Qurumun Mətbuat xidmətindən bildirilib ki, R.Əkbərovun həbs edilməsi barədə yayılan xəbərlər doğrudur. Rövşən Əkbərov Baş Prokurorluğun İstintaq İdarəsi tərəfindən aparılan cinayət işi üzrə həbs edilib.

Qeyd olunub ki, ictimaiyyətə daha sonra ətraflı məlumat veriləcək.

Xatırladaq ki, mətbuatda R.Əkbərovun həbs edilməsi və barəsində məhkəmə tərəfindən 4 aylıq həbs qətimkan tədbiri seçilməsi ilə bağlı məlumatlar yayılıb.

**AZƏRTAC**

# "Azercell" "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqinə artıq hazırdır

## "Əşyaların İnterneti" (İOT) texnologiyaları əsasında az enerji tələbatlı sensorların çalışa biləcəyi şəbəkəsi olan ilk şirkət "Azercell" oldu

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırığa əsasən azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasına əsaslanmalı, dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunmalıdır. Bu konsepsiya ilə bağlı "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrində müxtəlif hallərdə istifadə ediləcək qurğuların internet bağlantılarının təmin olunması üçün lazım olan şəbəkə infrastrukturunu ilk olaraq sınaqlar həyata keçirərək hazır vəziyyətə gətirən "Azercell" şirkəti oldu.**

Yeni texnologiyaların tətbiqi ilə istifadəçilərinin həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağı hədəfləyən "Azercell Telekom" "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrində iştirakı ilə də bu məqsədə xidmət edəcək. Qeyd olunan konsepsiyanın infrastrukturu yüksək texnologiyalar əsasında qurulur və bu layihələrdəki xidmətlərin çalışmasında istifadə edilən qurğuların bir qismi "Azercell"in hazırkı 2G/3G/LTE şəbəkəsi üzərindən fəaliyyət göstərə bilər, lakin bəzi hallərdə az enerji tələbatı olan (məsələn, kiçik batareyalarla çalışan) xüsusi sensor və qurğuların (məsələn, su/qaz sayğacı, kənd təsərrüfatında istifadə edilən sensorlar və s.) istifadəsi ilə rəqəmsal məlumatların mərkəzi sistemə ötürülməsi lazım gəlir. Mobil operatorlar bu tip sensor və qurğuları dəstəkləmək üçün LTE şəbəkəsində "az enerji tələbatlı şəbəkə" funksiyasını (NB-IoT - Narrow-Band Internet of Things) təklif edir. "Azercell Telekom" da bu imkanı şəbəkəsinə tətbiq edərək, lazımi sınaq testlərini keçirərək abunəçilərinə xidmət və əməkdaşlığa hazır vəziyyətə gətirmişdir.

Bu gurğulara dünyada geniş tətbiq edilən aşağıdakı cihazları misal çəkmək olar:

- Qapı sensorları - bəzən maqnit sensorlar və ya giriş sensorları olaraq da adlandırılır. Bu sensorlar izləmə sistemlərində bir qapının açıq olub-olmadığını bildirən və ya təhlükəsizlik sistemlərinin daha da təkmilləşdirilməsində və yüksək keyfiyyətinin təmin olunmasında əhəmiyyətli rol oynayan cihazlardır.
- Su və ya yanacaq səviyyəsini ölçən sensorlar - açıq və ya yeraltı rezervuarlar üçün xüsusilə uyğundur. Çənin üst hissəsi ilə su və ya yanacaq səviyyəsi arasındakı maye səviyyəsini ölçməyə imkan verir.
- Qaz sensoru - az enerji sərfiyyatı tələb edən qaz sensorları qaz aşkarlama sistemi, sızıntını aşkar etmək və istifadəçini sızıntının qarşısını almaq üçün xəbərdar etmək üçün istifadə olunur.
- Dayanacaq yerləri, ayrılmış yerlərin doluluğuna nəzarət etməyə imkan verən "ağıllı" park sensoru.
- "Ağıllı" izləyici sensor - IoT-a əsaslanan texnoloji həllər vasitəsilə malların və istehsal aktivlərinin izlənməsi, xərclərin azalması və qənaət baxımından şirkətlər üçün çox əlverişlidir.
- Yalnız dolmuş tullantı qutularının toplanmasına və nəticədə real vaxt monitorinqi və daha əlverişli marşrut planlamağa şərait yaradan "ağıllı" tullantı qutuları sensoru.

"Ağıllı şəhər" və "Ağıllı kənd"də enerji resurslarından daha səmərəli istifadə olunduğundan proseslərin ətraf mühitə və insan sağlamlığına verdiyi mənfi təsir minimuma endirilir. Bu sistemlərin əsas ideyası inzibati ərazilərin bütün mümkün xidmət və obyektlərini vahid kompüterləşdirilmiş sistemdə birləşdirib idarə etməkdir. Müxtəlif elektronik və rəqəmsal metodlardan, sensorlardan istifadə olunaraq toplanılmış məlumatlardan istifadə edərək aktivlərin və resursların səmərəli istifadəsi təşkil olunur.

"Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyası özünün müxtəlif üstünlükləri və müsbət cəhətləri sayəsində gələcəkdə sözsüz ki, meqapolislərin, habelə orta və kiçik şəhərlərin ayrılmaz hissəsinə çevriləcəkdir. "Ağıllı" sistemlərin tətbiqi ekologiya mühitinin yaxşılaşdırılması, vaxta qənaət, təhlükəsizlik xərclərinin azalması, ümumiyyətlə, şəhərin daha effektiv fəaliyyəti, kənd təsərrüfatının ən müasir texnologiyalar əsasında inkişafı, yüksək məhsuldarlıq deməkdir.

"Azercell" gələcək texnologiyalar dünyasında istifadəçilərinin bələdçisi olaraq müasir zamanda IoT (Əşyaların İnterneti) tərəfindən təqdim olunan məhdudiyyətsiz imkanlar və telekommunikasiya texnologiyaları vasitəsilə onlara daha rahat, "ağıllı" mühitdə işləmək və yaşamaq imkanı verir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə **2021**-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Azərişıq" ASC Yarımstansiyalar arasında bağlantıların qurulması üçün Şükürbəyli-Hadrut-Şuşa istiqamətində fiber optik (48 lifli) kabelin çəkilməsi və rabitə sisteminin keyfiyyətinin və dayanaqlılığının artırılması üçün ikinüvəli ATS-in qurulması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1.** Yarımstansiyalar arasında bağlantıların qurulması üçün Şükürbəyli-Hadrut-Şuşa istiqamətində fiber optik (48 lifli) kabelin çəkilməsi və rabitə sisteminin keyfiyyətinin və dayanaqlılığının artırılması üçün ikinüvəli ATS-in qurulması işlərinin satın alınması

**İştirak haqqı - 800 manat**

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Sultan Haşımov (telefon: 440-39-93, daxili (22-51)) sultan.hashimov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır);*
- *işlərin görülməsi üçün müvafiq lisenziya (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 14 aprel 2021-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini 22 aprel 2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 23 aprel 2021-ci il saat 12:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

### *açıq tender elan edir*

LOT 1 - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "Maarifləndirmə və təbliğat fəaliyyəti istiqamətində" işlərin və xidmətlərin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ - vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 manat**

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə elektron qaydada əldə edə bilərlər.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi**
**VÖEN: 1700272511**
**Hesab: AZ88CTRE00000000000002308301**
**VÖEN: 1401555071**
**Bank: AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN DÖVLƏT XƏZİNƏDARLIĞI AGENTLİYİ**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Büdcə təsnifat kodu: 142330**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *nizamnamə;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitlər.*

İxtisas göstəriciləri

1. İxtisas göstəriciləri barədə sənədlər - Fəaliyyət istiqamətləri barədə arayış təqdim edilməlidir.
2. İddiaçının cəlb edildiyi məhkəmə işləri (araşdırmaları) haqqında məlumat - Müvafiq orqandan arayış təqdim edilməlidir.

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 aprel 2021-ci il saat 14:00-a qədər, tender təklifi və bank təminatını isə 22 aprel 2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə elektron qaydada təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 23 aprel 2021-ci il saat 14:00-da Portal vasitəsilə online rejimdə açılacaqdır.

Tel: 4926391

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən Elman Yolçu oğlu Sarıyevin adına 02.02.2009-cu ildə verilmiş 080668 №-li Sığorta agenti lisenziyası itdiyi üçün etibarsız sayılır.

# Tender bildirişi

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Nümayəndəliyi kvalifikasiyalı iddiaçıları Azərbaycanda məcburi köçkünlərə və münaqişədən təsirlənmiş digər şəxslərə hüquqi yardım və məsləhət xidmətlərinin göstərilməsi üçün RFP/AZE/001/2021 nömrəli tenderdə iştirak etməyə dəvət edir. Bu fəaliyyətin məqsədi Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan olan məcburi köçkünlərə hüquqi yardım və məsləhət xidmətlərindən istifadə imkanı təmin etməkdir. Tələb olunan tender sənədlərinə aşağıdakı qaydada giriş əldə etmək olar:

- E-mail: azeba@unhcr.org elektron poçt ünvanına sorğu göndərmək.
- Tender sənədlərini hər iş günü səhər 10:00-dan 16:00-dək buradan əldə etmək olar: Azərbaycan, AZ1014, Bakı, Mirzəağa Əliyev küç., 210, Winter Park Plaza, BMTQAK.
- Maraqlananlar tender sənədlərini bu saytlardan da yükləyib götürə bilərlər: www.azerweb.com və https://azerbaijan.un.org/az/114698-tender-leal-aid-and-counseling-idps.

Təkliflərin təqdim edilməsinin son müddəti **02 aprel 2021-ci il saat 23:59-a qədərdir.**

# Tender Notice

The Representation of the United Nations High Commissioner for Refugees invites qualified companies to participate in the tender RFP/AZE/001/2021 Legal Aid and Counselling to IDPs and other conflict-affected individuals in Azerbaijan. The goal of this activity is providing IDPs from Nagorno-Karabakh and seven adjacent districts with an access to legal aid and counselling services. Access to the required tendering documents can be obtained as follows:

- E-mail: Send an e-mail request to azeba@unhcr.org
- Tender documents are available at: UNHCR, Winter Park Plaza, 210 Mirzaagha Aliyev str. Baku, AZ1014, Azerbaijan, every working day between 10:00 am until 16:00 pm
- Interested companies can download tender documents from www.azerweb.com and https://azerbaijan.un.org/az/-114698-tender-leal-aid-and-counseling-idps

The Deadline for submission of offers is **23:59Hrs on 02 April 2021**

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi "Respublika" qəzetinin baş redaktoru, professor

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "Respublika" qəzetinin baş redaktoru, professor

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva "Respublika" qəzetinin və "Füyuzat" jurnalının baş redaktoru

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi "Respublika" qəzetinin baş redaktoru

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi "Respublika" qəzetinin baş redaktoru

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Elmira Süleymanova Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov "Respublika" qəzetinin baş redaktoru, professor

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5249**
**Sifariş 506**
**Qiymәti 40 qəpik**